Maliyyə Monitorinqi Xidməti

METODİK VƏSAİT

BANKLAR TƏRƏFİNDƏN ŞÜBHƏLİ ƏMƏLİYYATLAR BARƏDƏ YÜKSƏK KEYFİYYƏTLİ HESABATLARIN HAZIRLANMASI VƏ MALİYYƏ MONİTORİNQİ ORQANINA TƏQDİM EDİLMƏSİNƏ DAİR

STRATEJİ TƏHLİLLƏR

2021

MÜNDƏRİCAT

GİRİŞ

Təqdim olunan metodik vəsait - “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” (PL/TMM) qanuna uyğun olaraq məlumat təqdim etmə öhdəliyinə malik banklar tərəfindən maliyyə monitorinqi orqanına (MMO) şübhəli əməliyyatlar barədə keyfiyyətli məlumatların təqdim edilməsinə dair metodiki xarakterli tövsiyələri və rəhbər prinsipləri müəyyən edir.

Müvafiq sənəd qabaqcıl beynəlxalq təcrübələrin araşdırılması üzrə nəticələrə əsaslanır. Təsadüfi deyildir ki, pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə (PL/TM) qarşı effektiv mübarizənin ilk pilləsi monitorinq iştirakçılarının müvafiq sahədəki öhdəliklərini aydın başa düşməsi və keyfiyyətli icra etməsindən başlayır. MMO-ya təqdim edilmiş şübhəli əməliyyat barədə aydın və müfəssəl hesabatlar (məlumatlar) PL/TM ilə mübarizədə MMO-nu çox dəyərli informasiya ilə təmin etməklə, törədilən cinayətlərin qarşısını almaqda, cinayətkar şəxs və ya qrupları aşkar etməkdə MMO-ya və hüquq mühafizə orqanlarına (HMO) yardım edir. Tam, dəqiq və düzgün olmayan şübhəli əməliyyat barədə məlumatlar (ŞƏM) isə təhlil imkanlarını məhdudlaşdırır, subyektləri və onların əlaqəliliyini düzgün müəyyən etməyə mənfi təsir edir və nəticə etibarilə ŞƏM-in ümumi effektivliyini aşağı salır.

ŞƏM, belə məlumatlar üzrə monitorinq rejimi və hesabatlılıq çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) üzrə beynəlxalq standartları müəyyən edən FATF Tövsiyələrinin tərkib hissəsidir. FATF Tövsiyələrinə əməl etmək bacarığı isə ölkənin PL/TM ilə mübarizə qabiliyyətini əks etdirir.

PL/TMM-in əsas məqsədi maliyyə sisteminin təhlükəsizliyinin təmin olunması, kriminal iqtisadiyyatın/cinayət fəaliyyətinin iqtisadi sistemin tarazlığına, əhalinin maddi rifah səviyyəsinə və gəlirlərin ədalətli bölgüsünə neqativ təsirini azaltmaq, cinayət yolu ilə əldə olunmuş və leqallaşdırılmış aktivlərin aşkar edilməsi və qanuni iqtisadi dövriyyəyə və maliyyə sisteminə geri qaytarılması, belə fəaliyyətin qarşısının alınması üzrə potensialın və mexanizmin təmin edilməsidir. Bu baxımdan, mübarizənin effektivliyi PL/TMM sisteminin bütün iştirakçılarının müvafiq sahədəki fəaliyyətlərinin effektivliyindən, belə fəaliyyətlərin əlaqələndirilmə səviyyəsindən, qarşılıqlı əməkdaşlıq imkanlarından və müvafiq sistemin müxtəlif səviyyələrində həyata keçirilən tədbirlərin qarşılıqlı olaraq əlaqələndirilməsi və uyğunlaşıdırlmasından, eləcə də milli mübarizə potensialı üzrə resursların düzgün bölgüsündən birbaşa asılıdır. Vahid PL/TMM sisteminin yekun effektivliyi onun ayrı-ayrı həlqələri olan hər bir iştirakçısının ayrılıqda effektiv fəaliyyətini tələb edir. Əks halda, bu həlqələrdən bir neçəsində və ya hər hansı birində müşahidə edilən zəiflik son nəticədə PL/TMM-in effektivliyinə əhəmiyyətli dərəcədə təsir edə bilər. PL/TM ilə mübarizədə müvafiq sistemin əsas iştirakçılarının fəaliyyətləri yalnız sistem tərəfindən verilmiş səlahiyyətlər fərqi ilə bir-birinə analojidir. Bu əsasda öz səlahiyyətlərinə və funksiyalarına uyğun olaraq, monitorinq subyektlərinin komplayens bölmələrinin mikro maliyyə monitorinqi orqanı (MMO) funksiyalarını, MMO-nun isə mikro hüquq mühafizə orqanı (HMO) funksiyalarını (bəzi məhdudiyyətlərlə) yerinə yetirdiyini demək olar.

Banklar tərəfindən MMO-ya yüksək keyfiyyətli ŞƏM-in təqdim olunması, ilk növbədə effektiv monitorinq və daxili nəzarət sisteminin tətbiqi çərçivəsində həyata keçirilən kompleks tədbirlərin əhatəliliyindən və keyfiyyətindən asılıdır. Belə tədbirlərə əməliyyatların davamlı monitorinqini təmin edən prosedurlar və qaydalar, müştərilərin

eyniləşdirilməsi, verifikasiyası, şübhəli əməliyyatların MMO-ya təqdim edilməsi və s. üzrə digər daxili qayda və prosedurlar, risk əsaslı yanaşmanın tətbiqi, məlumatların sənədləşdirilməsi və saxlanılması, şübhəlilik meyarlarının (indikatorların) hazırlanması, əməkdaşlara mütəmadi təlimlərin keçirilməsi, məsul şəxsin müəyyən olunması, digər qayda və mexanizmlər aiddir.

Təqdim olunan sənəddə belə tədbirlər kimi yüksək keyfiyyətli ŞƏM-in hazırlanması və təqdim olunmasına birbaşa təsir edən aşağıdakı əsas məsələlərə xüsusi diqqət yetirilmişdir: şübhə və şübhə üçün ağlabatan əsaslara yanaşmalar, şübhəli əməliyyatların monitorinqi prosesi, o cümlədən, şübhəli halların aşkar edilməsi, hesabatların hazırlanması və belə əməliyyatlar barədə məlumatların təqdim olunması prosesi, araşdırma və təhlil prosesi, onların mərhələləri, əməliyyatların təhlili metodları, ŞƏM-in strukturu və forması, ŞƏM-in məzmununa olan tələblər, belə hesabatların hazırlanmasında müşahidə edilən əsas zəifliklərə nümunələr, bəyan edilməmiş gəlirlərin müəyyən edilməsi metodları və s.

Müvafiq sənəd monitorinq iştirakçılarına beynəlxalq təcrübədə formalaşmış şübhə, şübhə üçün ağlabatan əsaslar, ŞƏM anlayışlarını şərh etməklə, ŞƏM-in aşkar edilməsi və prioritetləşdirilməsi, müvafiq araşdırmaların aparılması prosesi, təhlil metodları, təhlil hesabatlarının tərtib olunması və təqdim olunması üzrə tövsiyələri və rəhbər prinsipləri əhatə edir. Monitorinq iştirakçıları müvafiq sənəd əsasında şübhəli əməliyyatların monitorinqi proqramı çərçivəsində ŞƏM-in müəyyən olunması, qiymətləndirilməsi və MMO-ya təqdim edilməsi barədə müfəssəl informasiyanı özündə əks etdirən daxili siyasət və prosedurlara malik olmalıdır.

I. BEYNƏLXALQ TƏCRÜBƏDƏ ŞÜBHƏ, ŞÜBHƏ ÜÇÜN AĞLABATAN ƏSASLAR VƏ ŞÜBHƏLİ ƏMƏLİYYAT BARƏDƏ MƏLUMAT ANLAYIŞLARI

Şübhəli əməliyyatlar barədə məlumatların (ŞƏM) təqdim edilməsi üzrə öhdəliklərin müəyyən olunmasının iki aspekti mövcuddur. Birinci aspekt "şübhəli" termininin müəyyən edilməsi ilə bağlıdır. Bunun sayəsində konkret əməliyyatlar ilə əlaqəli faktların müəyyən "şübhəlilik" səviyyəsinə çatması və nəticə etibarilə məlumatların təqdim edilməsi üçün zəruri olan "əminlik dərəcəsi" müəyyən olunur. İkinci aspekt cinayət fəaliyyəti sferasının müəyyən edilməsini nəzərdə tutur ki, bu da şübhənin müvafiq cinayətlərdən birinə aid olması ilə məlumatların təqdim edilməsi üzrə öhdəliyin icrasının zəruriliyinə gətirib çıxara bilər.

FATF-ın "Şübhəli əməliyyat barədə məlumat" adlı 20-ci Tövsiyəsi "cinayət fəaliyyəti nəticəsində əldə olunmuş" gəlirlərə istinad edir. Müvafiq Tövsiyəyə əsasən, maliyyə təsisatı vəsaitlərin cinayət fəaliyyətindən və ya terrorçuluğun maliyyələşdirilməsindən əldə edilmiş gəlir olması şübhəsinə, yaxud belə şübhə üçün ağlabatan əsaslara malikdirsə, qanunla o, özünün müvafiq şübhələri barədə maliyyə monitorinqi orqanına (MMO) dərhal məlumat vermək öhdəliyi daşımalıdır. Bu Tövsiyə ilə maliyyə təsisatından əməliyyatın məbləğindən asılı olmayaraq, əməliyyat üçün cəhdlər də daxil olmaqla bütün şübhəli əməliyyatlar barədə məlumat təqdim etmək tələb olunur.

ŞƏM-in təqdim olunması üzrə öhdəliklərin müəyyən edilməsində başlanğıc nöqtə təqdim olunmayan şübhəli əməliyyatların sayını minimuma endirəcək və həqiqətən şübhə doğurmayan əməliyyatların sayını məhdudlaşdıracaq şəkildə müəyyən edilməlidir. Eyni zamanda, şübhəli əməliyyatların şübhəli xarakterini müəyyən etməyə imkan verən əsas faktların toplanması istisna olmaqla, şübhəli əməliyyatların tam araşdırılması (HMO-ya təqdim etmək üçün) müvafiq məlumatları təqdim edən təsisatların öhdəliklərinə daxil deyildir. Bununla əlaqədar, müvafiq məlumatların MMO tərəfindən təhlilindən sonra belə məlumatların böyük hissəsinin (xüsusilə qeyri-adi əməliyyatlar üzrə) cinayət fəaliyyəti ilə bağlı olmadığını da gözləmək olar.

1.1. Beynəlxalq təcrübədə "şübhə" anlayışı və bu terminə baxış üzrə mövcud yanaşmalar

Şübhə - işə aid olan bütün faktların nəzərdən keçirilməsindən sonra məlumat təqdim edən təsisatın gəldiyi rəydir. "Şübhə", "şübhəli əməliyyat" termini maksimum dəqiqliklə müəyyən olunmalıdır. Çünki məlumatların təqdim olunması üzrə öhdəliklərin icrası mürəkkəb və bahalı sistemlərin yaradılmasını tələb edir.

Qanunvericilik şübhəli əməliyyatlar barədə məlumatların təqdim olunmasını tələb etsə də, "şübhəli" termininin izahını vermir (bir çox ölkələrin qanunvericiliyində də eyni hal müşahidə olunur).

"Şübhəli" və "şübhə" terminləri kifayət qədər geniş məna diapazonuna malikdir və "faktiki məqbulluq həddi"nin çox aşağı olduğu hallara da aid ola bilər. Bu terminlərin şərhi ölkələr üzrə fərqlənir. Məsələn, müvafiq terminlərin adi mənası Böyük Britaniyada "hər hansı faktiki əsas olmadan və ya cüzi faktiki əsaslarla nəyisə ehtimal etmək", ABŞ-da "əhəmiyyətli olmayan faktlara əsaslanan və ya hər hansı müəyyən sübut olmadan, heç bir faktla dəstəklənməyən nə isə düzgün olmayan halın mövcudluğunu təxmin etmək və ya düşünmək" kimi müəyyən olunur. Fransız dilində də şübhə termini bir sıra mənalara malikdir ki, onların bir hissəsi həddən artıq zəif sübutların olmasını, məsələn, "sadəcə

təxmin, fikir, rəy, mülahizə, hipotezanı və ya intuitiv qərarı" nəzərdə tutur. Bu tərifl ərin qanuni qüvvəsi olmasa da, onlar "şübhəli" və "şübhə" terminlərinin çox müxtəlif mənalarının ola biləcəyini əyani olaraq göstərir.

Belə əhatəli meyardan istifadə olunması məlumat təqdim edən təsisatlara müəyyən əməliyyatlar barədə məlumatın təqdim olunub-olunmaması barədə qərar qəbulunda böyük fəaliyyət sərbəstliyi verir.

Belə fəaliyyət sərbəstliyi maliyyə təsisatının sərt qaydalar toplusuna deyil, işçilərinin ixtisasına, təcrübəsinə və müştərini tanımasına əsaslanaraq hansı əməliyyatların şübhəli olduğuna dair qərar verməli olduqları hal ilə uyğundur.

Eyni zamanda, belə meyardan istifadə olunması məlumat təqdim edən təsisatın üzərinə böyük yük qoyur və həmçinin bir qayda olaraq, MMO-ya daxil olan şübhəli əməliyyatlar barədə məlumatların sayını artırır. Bu isə məlumatların təhlili üçün daha çox heyətin və digər resursların (o cümlədən, informasiyaya çıxış) olmasını tələb etməklə, MMO üçün əlavə yük yaradır. Bunun qarşısını almaq üçün bəzi ölkələr tələb olunan "şübhəlilik" anlayışını konkretləşdirmək, digər ölkələr isə "şübhəlilik" meyarının istifadəsindən tam imtina etmək yolu seçirlər.

Bəzi ölkələrdə qanunvericilik səviyyəsində şübhələrin hər hansı bir faktiki müşahidələrə əsaslanması tələbini daxil etməklə "şübhə" sözünün mənasına böyük dəqiqlik gətirilməsi cəhdi edilmişdir. Məsələn, İsveçrənin PL ilə mübarizə haqqında qanunvericiliyində "əsaslandırılmış şübhə", yəni hətta zəif olsa belə hər hansı faktiki əsasa söykənən şübhə kateqoriyasından istifadə olunur. Eləcə də Avstraliya qanunvericiliyində daha obyektiv meyardan istifadə olunur. Belə ki, nağd əməliyyatlar həyata keçirən ticarətçilərdən onlarda olan informasiyanın hüquq pozuntusunun istintaqı və ya məhkəmə təqibi üçün əhəmiyyətli olması barədə kifayət qədər əsas yarandığı halda, belə əməliyyatlar barədə məlumat verilməsi tələb olunur. Müvafiq qanunlar, ola bilsin ki, meyarları daha obyektiv edə bilsin, lakin eyni zamanda da onlar "tələb olunan faktiki əsaslandırma həddi"nin yüksəldilməsinə gətirib çıxarır.

Lakin obyektiv meyar yanaşmasında həddən artıq dəqiqliyin qanunverici olaraq tələb olunması (şübhənin yaxşı əsaslandırılması) zamanı maliyyə təsisatları ilə MMO arasındakı funksiya bölgüsünün uyğunluğu diqqətdə saxlanılmalıdır. Bir sözlə, şübhə üçün əsasların HMO-ya ötürmə və həmin qurumlar tərəfindən növbəti araşdırma üçün kifayət etməsi barədə qərarın verilməsi funksiyası MMO-nun üzərinə düşür.

"Şübhə" termininin mümkün şərh diapazonunu müəyyən dərəcəyədək məhdudlaşdıra biləcək digər bir üsul müvafiq terminin konkretləşdirilməsi vəzifəsini hər hansı orqanın üzərinə qoyan mexanizmin yaradılmasıdır. Bu yanaşma Lüksemburqda istifadə olunmuşdur. Belə ki, Lüksemburqun maliyyə sektoruna nəzarət üzrə Komissiyası məlumat təqdim etmə öhdəliyini konkretləşdirməyə imkan verən indikatorlar (şübhəlilik meyarları) dəstinə dair təlimat buraxmışdır.

Litvada "şübhəli" əməliyyatların nə olduğunu dəqiqləşdirən meyarlar hökumətin qərarlarında ifadə edilmişdir. Digər ölkələrdə, məsələn, Kanadada şübhəli əməliyyatların aşkar edilməsində məlumat təqdim edən təsisatlara yardım etmək məqsədilə MMO tərəfindən qanunverici aktların və normativ qərarların bir hissəsi olmayan və icrası məcburi olmayan rəhbər prinsiplər qəbul edilmişdir.

Digər yurisdiksiyalar qanunvericilikdə "şübhə" və ya onun variantları olan terminlərdən istifadədən qaçır və məlumatların təqdim edilməsi üzrə öhdəliyin əsasına daha obyektiv meyarlar qoymağa çalışırlar. Bu baxımdan qeyd etmək lazımdır ki, PL-in qarşısının alınması üzrə Avropa İttifaqı direktivi üzv-dövlətlərdən "PL-i göstərə bilən istənilən faktlar barədə" səlahiyyətli orqanları məlumatlandırmaq üçün müvafiq hüquqi və fiziki şəxslərin üzərinə öhdəliklərin qoyulmasını tələb edir. İspaniya qanunvericiliyi "PL əlamətləri olan və ya PL ilə əlaqəsinə dair dəqiq sübutları olan istənilən fakt və ya əməliyyat barəsində" məlumat verilməsini tələb edir.

Məlumat təqdim olunması öhdəliklərinin əsası olaraq "şübhə" terminin istifadə olunmadığı digər bir yanaşma Niderlandda qəbul olunmuşdur. Burada məlumatların təqdim olunması üzrə öhdəlik əməliyyatların "qeyri-adiliyi"nə əsaslanır. Niderland qanunvericiliyi məlumatların təqdim olunması üzrə öhdəliyin aid edildiyi şəxslərdən "qeyri-adi" əməliyyatlar barəsində məlumat verilməsini tələb edir. Belə yanaşmada əməliyyatları cinayət şübhəsi ilə əlaqələndirmək zərurəti mövcud deyil, əməliyyatların qeyri-adiliyi faktının özü kifayət edir. Ədliyyə və maliyyə nazirlikləri MMO ilə məsləhətləşdikdən sonra zərurət olduqda, hər bir əməliyyat kateqoriyası üçün indikatorların birgə qəbuluna cavabdeh olur. İndikatorlar hökumət tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minir.

"Aralıq" variantda məlumat təqdim olunması tələb olunan əməliyyatların eyniləşdirilməsinin müxtəlif mərhələlərində hər iki meyardan – həm "qeyri-adilik" və həm də "şübhəlilik" meyarlarından istifadə olunur. Kolumbiyada, məsələn, verilmiş müştəri üçün xarakterik olmayan istənilən əməliyyat və ya məlumat təqdim edən təsisat tərəfindən müəyyən olunmuş obyektiv əlamətlər kateqoriyasından birinə düşən istənilən əməliyyat "qeyri-adi" əməliyyat olaraq qiymətləndirilir. Daha sonra məlumat təqdim edən təsisat belə əməliyyatda iqtisadi və hüquqi əsasların olub-olmamasını müəyyən etməkdən ötrü onların sonrakı yoxlamasını həyata keçirir. Belə əsasların mövcud olmadığı halda, əməliyyat "şübhəli" hesab olunur və bu barədə MMO-ya məlumat ötürülür.

FATF Tövsiyələri məlumatın təqdim edilməsi üzrə öhdəliyin yaranması üçün tələb olunan şübhənin konkret xarakteri məsələsinin həllini hər bir ölkənin öz ixtiyarına buraxır.

Beləliklə, şübhəliliyin müəyyən olunmasında "şübhələnmək" (subyektiv meyar) və "şübhə üçün kifayət qədər əsaslara malik olmaq" (obyektiv meyar) kateqoriyaları fərqləndirilsə də, praktikada bu sərhəd "şübhələnmək" terminin istifadə olunduğu konteksdə müəyyən dərəcədə silinir.

Məlumatların təqdim olunması öhdəliklərinin müəyyən edilmə xarakteri müxtəlif ölkələrdə fərqlənsə də, "öz müştərini tanı" qaydasına tabe olan, məlumat təqdim edən monitorinq subyektlərinin şübhəli və ya qeyri-adi əməliyyatların aşkar edilməsində daha yaxşı imkanlara malik olması faktı dəyişməz olaraq qalır.

1.2. Şübhə üçün ağlabatan əsaslar (şübhə üçün kifayət qədər əsas yaradan hallar)

Banklar şübhə üçün kifayət qədər əsas yaradan hallar əsasında MMO-ya ŞƏM təqdim etməlidirlər. Müvafiq anlayışın məzmununa aydınlıq gətirmək məqsədilə *sadə şübhə, şübhə üçün ağlabatan əsaslar və inanmaq (təxmin) üçün ağlabatan əsaslar* anlayışlarının fərqinə diqqət yetirmək lazımdır.

Sadə şübhə - şübhə üçün ağlabatan əsaslara nəzərən daha aşağı çıxış nöqtəsi olmaqla, intuisiya və ya təxmin sözlərinin sinonimidir. Başqa sözlə, sadə şübhə anlayışı sizdə

nəyinsə qeyri-adi və ya şübhəli olması hissinin olduğunu, lakin bu hissi dəstəkləyən və ya PL/TM halının (cinayətinin) olması barədə ağlabatan nəticə çıxarmağa imkan verən hər hansı fakt, məzmun və ya PL/TM indikatorunun olmadığını bildirir. Sadə şübhə - şübhələrinizi dəstəkləyən və ya təsdiqləyən əlavə məlumatların olub-olmadığını görmək üçün əlaqəli əməliyyatların qiymətləndirilməsini tələb edə bilər.

Şübhə üçün ağlabatan əsaslar – MMO-ya ŞƏM təqdim etmək üçün zəruri həddir (çıxış nöqtəsidir) və sadə şübhədən bir addım yuxarıdır ki, bu da PL/TM cinayətinin baş vermə ehtimalının olduğunu göstərir. Bu halda sizə şübhələnmək üçün əsas olan faktları, məzmunu və ya PL/TM indikatorlarını yoxlamaq lazım gəlməyəcək, eləcə də siz şübhə üçün ağlabatan əsasları əldə etmək üçün PL/TM hallarının (cinayətinin) baş vermə faktlarını sübut etmək məcburiyyətində deyilsiniz. Şübhəniz ağlabatan olmalı və bu səbəbdən qeyri-obyektiv və qərəzli olmamalıdır.

Şübhə üçün ağlabatan əsasları əldə etmək - sizin maliyyə əməliyyatları ilə əlaqəli olan faktları, məzmunu və PL/TM indikatorlarını nəzərə almağınız və bu məlumatı nəzərdən keçirdikdən sonra verilmiş maliyyə əməliyyatının PL/TM ilə əlaqəli olduğuna dair şübhə üçün ağlabatan əsasların olması qənaətinə gəlməyiniz deməkdir. Siz PL/TM şübhələrinizi elə formada nümayiş etdirməyi və ifadə etməyi bacarmalısınız ki, eyni materialı nəzərdən keçirən və analoji bilik, vərdiş və təcrübəyə malik digər şəxsin də eyni nəticəyə gəlmə ehtimalı olsun.

İnanmaq (təxmin etmək) üçün ağlabatan əsaslar - şübhə üçün ağlabatan əsaslardan bir addım yuxarı həddir (çıxış nöqtəsidir) və ŞƏM-in ötürülməsi üçün daha yüksək tələbdir. İnanmaq (təxmin etmək) üçün ağlabatan əsaslar PL/TM halının (cinayətinin) baş vermə ehtimalını dəstəkləyən təsdiqlənmiş faktların olması deməkdir. Belə əsaslar, başqa sözlə, məntiqli və təlim keçmiş təcrübəli insanın yalnız PL/TM-in olması barədə şübhələnməsi üçün deyil, eləcə də onu buna inandırmaq üçün kifayət qədər dəlillərin (sübutların) olması deməkdir. Məsələn, hüquq mühafizə orqanlarının məhkəmə icazələrini əldə etməzdən əvvəl cinayət fəaliyyətinin baş verməsinə inanmaq (təxmin etmək) üçün ağlabatan əsaslar tapmasını analoji misal olaraq göstərmək mümkündür.

1.3. Şübhəli əməliyyat barədə məlumat (hesabat) anlayışı

Monitorinq iştirakçısının şübhələndiyi və ya şübhə üçün kifayət qədər əsaslara malik olduğu əməliyyatlar (icra olunmuş və cəhd edilmiş) PL/TM də daxil olmaqla ciddi hüquq pozuntuları ilə bağlı olduğu halda şübhəli hesab olunur. ŞƏM-lər üçün limit həddi mövcud deyildir.

Bir qayda olaraq, şübhəli əməliyyat bir çox halda müştərinin məlum işi, peşəsi, qanuni işgüzar və şəxsi fəaliyyəti, yaxud şəxsin daxil olduğu müvafiq müştəri qruplarının adi biznesi ilə uyğun olmayan əməliyyatlar ilə bağlı olur. Hər hansı şəxsin şübhəli əməliyyatlarının müəyyən olunması sonrakı araşdırma və eləcə də zərurət olduqda, onun vəsaitlərinin mənbəyinin tədqiqi üçün əsas olmalıdır.

Uyğun olmayan, yaxud normadan kənarlaşan fəaliyyət və ya davranışın müəyyən edilməsini asanlaşdırmaqdan ötrü aşağıdakı əsas tədbirlər həyata keçirilməlidir:

- Müştərilərin profil məlumatları dövri olaraq yenilənməlidir (minimum ildə iki dəfə);
- Əsas eyniləşdirmə məlumatlarını, iş yerlərini, digər maliyyə mənbələrini, işin xüsusiyyətlərini / hər hansı bir hesabın istifadəsini və sairi özündə ehtiva edən qeydlər əldə olunmalıdır;

- Həyata keçirilən əməliyyatların həcmindən asılı olaraq müvafiq sistem vasitəsilə, yaxud manual olaraq əməliyyatların monitorinqi həyata keçirilməlidir.

Müştərinin profilinin müəyyən olunduğu və davamlı olaraq yeniləndiyi halda, verilmiş müştəri tərəfindən həyata keçirilən istənilən pozuntu hallarını və qeyri-adi fəaliyyətləri aşkar etmək asan olur ki, bu da ŞƏM təqdim etmək üçün təbii əsas kimi çıxış edə bilər.

Bir çox hallarda baş verən həqiqi cinayət fəaliyyətini müəyyən etmək mümkün olmur. Lakin ŞƏM-in aşkar olunmasına yardım etmək məqsədilə monitorinq iştirakçısı olan qurum əməliyyatlara istinad edə, yaxud onları indikatorlar, tipologiyalar və ya tematik tədqiqatlar üzrə yoxlaya bilər. Bir çox hallarda şübhə üçün əsaslar ayrıca indikatorlar üzrə deyil, belə indikatorların kombinasiyasını tələb edə bilər.

Monitorinq iştirakçısı tərəfindən müəyyən olunmuş aşkar dələduzluq, saxtalaşdırma kimi cinayət halları barədə birbaşa olaraq aidiyyəti hüquq mühafizə orqanına (HMO) məlumat verilməsi tövsiyə olunur. Lakin HMO-ya məlumat təqdim olunduqdan sonra belə hallar barədə həmçinin MMO-ya ŞƏM hesabatı təqdim etmək lazımdır. Bu, MMO-ya tendensiyaları müəyyən etməyə, maliyyə sektoru tərəfindən aşkar olunmuş müxtəlif predikativ cinayətləri başa düşməyə imkan verir. Müvafiq nəticələr isə MMO tərəfindən HMO-ya yardım edilməsi və eləcə də işin nəticələri barədə maliyyə institutlarına MMO tərəfindən məlumat verilməsi üçün faydalıdır.

Əgər monitorinq iştirakçısı dələduzluq, saxtalaşdırma və s. bu kimi birbaşa PL/TM-ə aid olmayan cinayət halları müəyyən edilmiş müştəri ilə işgüzar münasibətləri dayandırmaq barədə qərar verirsə, bu barədə müştərinin məlumatlandırılmasına qədər MMO-ya məlumat verilməlidir. Bu barədə məlumat ya əvvəlcədən MMO-ya təqdim olunmuş ŞƏM-də qeyd olunmalı, yaxud ŞƏM təqdim edildikdən sonra bu qərar verildiyi halda təhlükəsiz mesaj sistemi vasitəsilə MMO-ya məlumat verilməlidir.

Müvafiq dövlət orqanları tərəfindən operativ qərar qəbulu məqsədilə terrorçuluq ilə əlaqəli olan istənilən ŞƏM barədə şübhəlilik və ya şübhə üçün ağlabatan əsasların müəyyən edildiyi andan etibarən dərhal məlumat vermək lazımdır.

II. ŞÜBHƏLİ ƏMƏLİYYATLARIN MONİTORİNQİ PROSESİ: MONİTORİNQ PROSESİNİN ƏSAS ELEMENTLƏRİ, ŞÜBHƏLİ ƏMƏLİYYATLARIN AŞKAR EDİLMƏSİ VƏ TƏQDİM OLUNMASI, ARAŞDIRMA, TƏHLİL, ŞÜBHƏLİLİK ƏSASLARININ MÜƏYYƏN EDİLMƏSİ VƏ HESABATIN TƏQDİM EDİLMƏSİ PROSESLƏRİ

2.1. Şübhəli əməliyyatların monitorinqi prosesi və onun əsas elementləri

Monitorinq – potensial şübhəli fəaliyyətin (halların) müəyyən olunması üçün hazırlanmış və həyata keçirilən prosesləri təsvir etmək üçün istifadə olunan ümumi termindir. Monitorinq, əməliyyat üzrə fəaliyyətin nəzərdən keçirilməsi ilə məhdudlaşdırılmamalıdır. Potensial şübhəli fəaliyyət müştəri fəaliyyətlərinin digər növləri ilə müəyyən oluna bilər. Banklarda PL/TMM proqramının əsas tərkib hissəsi kimi monitorinq risk əsaslı və davamlı olmalıdır. Belə ki, yüksək riskli hallarda genişləndirilmiş (ətraflı) monitorinq, aşağı riskli hallarda isə məhdud (sadə) monitorinq həyata keçirilə bilər.

FATF-da monitorinq anlayışı aşağıdakı növ fəaliyyətləri əhatə edir:

- Potensial şübhəli fəaliyyət üçün müştərinin əməliyyatlarının monitorinqi;
- PL/TMM siyasət və prosedurlarına uyğunluğun monitorinqi;
- PL/TMM qanunvericiliyinə uyğunluğun monitorinqi.

Müvafiq sənəd monitorinqin əsas hissəsi olan əməliyyatların monitorinqini əhatə edir.

Həmçinin monitorinq iştirakçıları şübhəliliyin müəyyən olunma mənbələri kimi (i) müştərinin əməliyyatlarının monitorinqi, (ii) müştəri profili üzrə ağlabatan izah olmayan ziddiyyətlər və kənarlaşmalar və (iii) şübhəlilik indikatorlarından istifadə edə bilərlər.

Aşağıda əməliyyatların monitorinqi prosesinin əsas elementləri barədə ətraflı məlumat verilmişdir.

2.1.1. Təhlil zamanı potensial şübhəli halların əsaslandığı şübhəli əməliyyatların / predikativ cinayətlərin müəyyən olunması öhdəliyi

Milli qanunvericiliklə banklar üçün şübhəli halların təhlili zamanı predikativ cinayətlərin müəyyən olunması tələbi irəli sürülməmişdir. Banklardan qeyri-qanuni fəaliyyətə cəlb oluna bilən şübhəli əməliyyat barədə hesabat təqdim etməsi tələb olunur. Banklar əsas predikativ cinayətləri müəyyən etməyə, təsdiq etməyə və əsaslandırmağa borclu deyillər. Müvafiq cinayətlərin müəyyən edilməsi və araşdırılması HMO-ın səlahiyyətlərinə daxildir. Potensial şübhəli əməliyyatın araşdırılması zamanı banklar şübhəli əməliyyatı ən yaxşı şəkildə təsvir etməlidir. Lakin bankların müvafiq cinayətlər sahəsində məlumatlı olması HMO-ın araşdırmaları üçün faydalı olardı.

FATF-ın Tövsiyələrinə əsasən, yüksək riskli müştəri növləri və fəaliyyətləri (yüksək riskli müştəri, məhsul və coğrafi zonalara aid nümunə *əlavə 1-də* verilmişdir) üçün genişləndirilmiş monitorinq tədbirləri həyata keçirilməlidir (FATF-ın 8, 10, 12, 13, 14, 16, 19, 22, 23, 29, 32 və 36-cı Tövsiyələrinə xüsusi diqqət yetirməklə).

2.1.2. Bankın şübhəli əməliyyatların monitorinqi proqramında risk əsaslı yanaşmadan istifadə qaydası

Bir çox banklar PL/TMM üzrə risk qiymətləndirmələrinin nəticələrini (məsələn, horizontal risk qiymətləndirməsi, hüquqi şəxslərin fəaliyyət sahəsi üzrə risk qiymətləndirməsi, məhsul/xidmət üzrə risk qiymətləndirməsi, müştəri riskinin qiymətləndirməsi) özlərinin şübhəli əməliyyatların monitorinqi proqramlarının uyğunluğunu müəyyən edən amil kimi istifadə edirlər.

Məsələn, bəzi banklar yüksək riskli məhsullar, coğrafi ərazilər və fəaliyyət sahələri üçün daha çox resurs təyin edirlər. Əlavə olaraq, bir çox banklar yüksək riskli müştərilərin daha ətraflı araşdırılması üçün müştərinin risk səviyyəsinə əsaslanan monitorinq həddlərini (başlanğıc nöqtələrini) tənzimləyirlər.

Şübhəli əməliyyatların monitorinqini həyata keçirən bəzi proqram həllərində prioritetləşdirməni təmin etmək üçün xəbərdarlıqlara (xəbərdarlıq sistemi barədə 2.2.1 bölməsində ətraflı məlumat verilmişdir) risk dərəcəsi vermək və ya onları prioritetləşdirməyə imkan verən funksiya mövcuddur.

2.1.3. Potensial şübhəli halların müəyyən olunması üçün monitorinq predmeti olan əməliyyatlar və müştərilər

Bütün əməliyyatlar və müştərilər monitorinqin subyekti olmalıdır. Lakin belə monitorinqin dərəcəsi, təbiəti və tezliyi risk əsaslı olmalıdır. Banklar dövri olaraq onlar tərəfindən təklif olunan bütün məhsul və xidmətlərin inventarizasiyasını aparmalı və potensial şübhəli əməliyyatın (halların) müəyyən edilməsi üçün bu məhsulların hər birinin necə monitorinq olunduğunu müəyyən etməlidir. Əlavə olaraq, bank yeni yaradılmış məhsul və xidmətlərin monitorinq prosesinə cəlb edilməsinə əmin olmaq üçün müvafiq mexanizmə malik olmalıdır ki, bu da adətən, yeni məhsulların hazırlanması bölmələrində komplayens nümayəndələrinin birgə iştirakı ilə yerinə yetirilir.

2.1.4. Əməliyyatların və müştərilərin monitorinqi qaydası

Əməliyyatlar və müştərilər müxtəlif qaydada monitorinq olunur. Potensial şübhəli əməliyyatın (fəaliyyətin) müəyyən edilməsi üzrə hər məsələyə eyni yanaşma adətən, kifayət etmir. Banklar təklif olunan bütün məhsul və xidmətləri müəyyən edən zaman müştəri profili və əməliyyat üzrə fəaliyyət barədə məlumatların müvafiq qaydada saxlanıldığını da müəyyən etməlidirlər. Belə yoxlama elektron qaydada saxlanılmış məlumatın formatını, yerləşdiyi yeri, məzmununu və keyfiyyətini (detallaşma səviyyəsi, tamlığı, faydalılığı), eləcə də qeyri-elektron informasiya mənbələrini də müəyyən etməlidir. Müvafiq yoxlama zamanı müəyyən edilmiş amillər əməliyyatların monitorinq olunması üsulunu (məsələn, avtomatlaşıdırlmış monitorinq sistemi, yaxud manual qaydada hazırlanmış hesabatlar, ya da müştəri informasiyasının dəstəyi ilə) da aşkar etməyə imkan verəcəkdir.

2.1.5. Potensial şübhəli halların müəyyən edilməsi üçün profil məlumatlarının hazırlanması

Banklar hesabların açılması prosesində müştərilərin gözlənilən fəaliyyətləri barədə məlumatlar (istifadə edəcəyi məhsullar, coğrafi ərazilər, əməliyyatların tezliyi, məbləğ və s.) toplamalıdır. Lakin banklar gözlənilən müvafiq əməliyyat profilini uyğunluğun müəyyən edilməsi (məsələn, müştərinin məşğuliyyəti, gəliri, biznesi üzrə gözləntilər ilə müqayisələr) üçün dövri olaraq nəzərdən keçirməlidir.

2.1.6. Avtomatlaşdırılmış monitorinq sisteminə malik bankların manual monitorinq hesabatları yaratmasının zəruri olduğu hallar

Bankların malik olduğu texnologiyanın nə qədər mürəkkəb olmasından asılı olmayaraq, çox vaxt bütün müştəri növləri, bütün məhsul və xidmətləri, əməliyyatları əhatə etmək üçün zəruri olan bütün monitorinqi təmin etmək olmur. Manual hesabatların hazırlanması səbəbləri kimi, adətən, məlumatlarda problemlər və ya ŞƏM-in aşkar edilməsinin daha

ətraflı üsullarına ehtiyacların olması çıxış edir. Manual hesabatların bəzi nümunləri kimi aşağıdakıları göstərmək olar:

- bəzi müştəri növlərinin və ya əməliyyatların (borc ödənişləri və s.) müxtəlif platformalarda emal edilməsi;
- bəzi yüksək riskli məhsulların (məsələn, ticarətin maliyyələşdirilməsi) avtomatlaşıdırlmış sistem tərəfindən monitorinq oluna bilinməməsi;
- bir müşətiyə malik hesablarla müqayisədə kollektiv (birgə) hesabların daha ətraflı araşdırma tələb etməsi;
- yüksək riskli predikativ cinayətlər, məsələn, insan qaçaqmalçılığı üzrə fəaliyyətlərin sxeminin müəyyən olunmasının ənənəvi monitorinqi deyil, məlumatların analitikasını tələb etməsi.

Lakin banklar mümkün qədər avtomatlaşıdırlmış monitorinq sisteminin tətbiqinə çalışmalı, eləcə də digər zəruri məlumatları inteqrasiya etməyə, araşdırma aparmağa və müvafiq iş axınlarını idarə etməyə imkan verən proqram həllindən istifadə etməlidir.

Banklarda şübhəli əməliyyatların monitorinqi və məlumatların təqdim olunması prosesinin avtomatlaşdırılmasının faydaları barədə *Əlavə 2-də* ətraflı məlumat verilmişdir.

2.1.7. Şübhəli əməliyyatlara dair məlumatların (ŞƏM-in) ötürülüb-ötürülməməsi barədə qərarın verilməsi

Bankın şübhəli əməliyyatları araşdıran əməkdaşları tərəfindən araşdırmanın nəticələri barədə məsul şəxsə təqdim edilmiş araşdırma hesabatı barədə məsul şəxs aşağıdakı qərarları verə bilər:

a) MMO-ya ŞƏM təqdim etmədən araşdırmanın bağlanması qərarı;
b) əlavə araşdırmaların, yaxud aydınlaşdırmaların tələb olunması barədə qərar;
c) ŞƏM-in MMO-ya ötürülməsinə razılığa dair qərar.

Qərar vermə mexanizmi müxtəlif banklarda müxtəlif ola bilər. ŞƏM-in ötürülüb-ötürlməməsinə dair son qərarın verilməsi səlahiyyəti bəzi subyektlərdə məsul şəxsin, yaxud onun müəyyən etdiyi digər menecment heyətinin üzərinə qoyula, digərlərində isə belə qərar qrup qərarı şəklində verilə bilər. Keyfiyyətə nəzarət prosesindən asılı olmayaraq, bank vaxtında olmaqla yüksək keyfiyyətli ŞƏM təqdim etdiyinə əmin olmalıdır.

Məsul şəxsin ŞƏM-in təqdim edilib-edilməməsi barədə qərar üçün yuxarı menecment heyətindən, yaxud direktorlar şurasından təsdiq alması tələb olunmur. Belə bir qərar müstəqil olaraq verilməlidir.

Əlavə olaraq, araşdırmanı həyata keçirən heyətə qarşı aşağıdakı tələblər müəyyən oluna bilər:

- Müvafiq sahə/məhsullar barədə uyğun biliklərə sahib olmaq;
- PL/TMM risklərini başa düşmək;
- İnformasiya ilə işləmək və onu emal etmək üçün internetdən istifadə bacarığı;
- Məlumat toplamaqdan ötrü bankın fəaliyyət istiqamətləri üzrə effektiv işləmə bacarığı;
- ŞƏM-in monitorinqini həyata keçirən proqram təminatı ilə işləmə təcrübəsi (sistemin funksionallığını və məntiqini başa düşməklə);
- Sxem, diaqram və modellərin müəyyən edilməsi və normadan kənarlaşmaların aşkar edilməsi bacarığı;
- Sistemli və məntiqi nəticə çıxarmaq və xülasə etmək bacarığı.

Azsaylı araşdırma komandasına malik olan banklar böyük ehtimalla “əvvəldən axıradək” yanaşması ilə işləyir, yəni bir analitik xəbərdarlığı seçir, araşdırır, hesabat hazırlayır və

ötürür. Daha böyük resurslara malik banklar isə iş bölgüsü yanaşmasına uyğun olaraq aşağıdakı qaydada işləyirlər:

- Analitiklər iş açıla bilən potensial şübhəli halın müəyyən edilməsi üçün xəbərdarlıqların ilkin baxışını həyata keçirir;
- Araşdırmanı həyata keçirən şəxslər müştərinin fəaliyyətini ətraflı nəzərdən keçirə və açılmış işin bağlanması və ya MMO-ya ŞƏM hesabatının göndərilib-göndərilməməsi barədə tövsiyə verir;
- Menecerlər son baxışı həyata keçirir və ŞƏM hesabatının göndərilib-göndərilməməsi barədə qərar verirlər.

İş bölgüsü yanaşması təcrübə və bacarıqlara malik şəxslərin səlahiyyətlərinin daha yaxşı tənzimlənməsinə imkan verir. Lakin burada bir məsələni nəzərə almaq lazımdır ki, daha mürəkkəb xəbərdarlıqların, işlərin araşdırılması daha təcrübəli işçilərə həvalə olunmalıdır.

2.1.8. Banklarda şübhəli əməliyyatların monitorinqi proqramı çərçivəsində hazırlanması tövsiyə olunan prosedurlar (standartlar və protokollar)

Banklarda şübhəli əməliyyatların monitorinqi prosesi çox vaxt onların şübhəli fəaliyyətin monitorinqi üzrə istifadə etdikləri proqram təminatı tərəfindən diktə olunur. Müvafiq texnoloji həll tətbiq olunan kimi banka aşağıdakı əsas monitorinq protokollarının hazırlamaq və həyata keçirmək tövsiyə olunur:

- Şübhəli əməliyyatların aşkarlanması, qarşısının alınması və məlumatların MMO-ya təqdim olunması üzrə qaydalar;
- Prioritetləşdirmə, ŞƏM hesabatlarının araşdırılması (hazırlanması) və ötürülməsi proseduru;
- ŞƏM hesabatlarının məzmunu üzrə sənədləşdirmə standartları;
- Avtomatlaşdırılmış xəbərdarlıq siqnallarının (sistemlərinin) müəyyən olunması (risk qiymətləndirməsi və s. əsasında) proseduru;
- Avtomatlaşdırılmış xəbərdarlıq siqnallarının təhlili üzrə iş axınlarının müəyyən olunması proseduru;
- Məlumatların nəzərdən keçirilməsi üçün dövr (məsələn, avtomatlaşdırılmış xəbərdarlıqların 3, 5, yaxud 10 gün ərzində nəzərdən keçirilməsi, aşkar edildiyi tarixdən 3, 5 və s. gün sonra ŞƏM təqdim edilməsi) və istənilən gecikməni aşkar etmək üçün müvafiq izləmə və hesabatlılıq prosedurları;
- Keyfiyyətin təmin olunması prosedurları (məsələn, seçilmiş xəbərdarlıqlara, ŞƏM hesabatlarına, təhlil hesabatlarına ikinci dəfə baxılması);
- Müştərinin və benefisiarın eyniləşdirilməsi və verifikasiyası üzrə daxili qayda və prosedurlar;
- Monitorinq olunmalı əməliyyatların aşkarlanması meyarları (indikatorlar);
- Məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsi qaydaları;
- İşə qəbul və işçilərin yoxlanması qaydaları və s.

2.2. Şübhəli əməliyyatların aşkar edilməsi və təqdim olunması

2.2.1. Şübhəli əməliyyatların aşkar edilməsinin əsas elementləri (mənbələri)

Banklar aşağıda qeyd olunmuş müxtəlif üsullar vasitəsilə şübhəli hallar barədə məlumatlı olurlar:

- *Ofis daxili birbaşa ünsiyyətlə müəyyən etmə:* müştərilərlə birbaşa ünsiyyətdə olan əməkdaşlar şübhəli halı müşahidə edə və bu barədə komplayens bölməsini xəbərdar edə bilər;

- *Əsas sistemin hesabatlarının manual olaraq nəzərdən keçirilməsi:* bu üsul özündə əsas sistem tərəfindən yaradılmış əməliyyatlar barədə hesabatların manual qaydada yoxlanılmasını birləşdirir;
- *Müşahidə monitorinqi:* avtomatlaşıdırlmış xəbərdarlıq siqnalları vasitəsilə əməliyyatların avtomatik təhlilini təcəssüm etdirir (bankda şübhəli əməliyyatların monitorinqi və məlumatların təqdim olunması prosesinin avtomatlaşdırılmasının faydaları barədə əlavə 2-də ətraflı məlumat verilmişdir);
- *Hüquq mühafizə orqanının sorğuları:* bəzi hallarda şübhəli şəxsi təqib edən HMO əməkdaşları həmin şəxslərin işi üzrə daha çox sübut tapmaq ümidi ilə maliyyə institutlarına həmin şübhəli şəxsin əməliyyatlarının yoxlanılması üzrə sorğu verirlər;
- *Məhkəmənin sorğusu:* banka məhkəmə qərarı üzrə sorğu daxil olduqda, şübhəli hal (əməliyyat, fəaliyyət) üzrə istənilən sübutun əldə edilməsi üçün müvafiq müştərinin əməliyyatları yoxlanılmalıdır. Siz bu barədə MMO-ya ŞƏM-in təqdim edilməsi barədə də qərara gələ və məlumatı MMO-ya təqdim edə bilərsiniz. Lakin bu zaman konfidensiallığın qorunmasına mütləq riayət olunmalı və təqdim olunacaq məlumatda yalnız tərəfinizdən aşkar edilmiş faktlara istinad edilməlidir. Həmçinin bu halda məhkəmənin sorğusu əsasında işin açılması barədə də məlumat verməməlisiniz.

Banklar tərəfindən potensial şübhəli hal (fəaliyyət) aşkar olunduğu təqdirdə, detektiv kimi işin təfərrüatlarına daxil olunması təqdir olunur. Hansı əməliyyatların şübhəli, hansıların isə bir qədər qeyri-adi olduğunu (normadan çox kənarlaşmadığını) müəyyən etmək bir qədər səy və zaman tələb edir. Lakin məhz bu səylər aid olduğunuz bankın maliyyə resurslarını qorumağa və cinayətkarlara qarşı mübarizə aparılmasına yardım edir. Şübhəli halın məntiqi izahının olub-olmamasını müəyyən etməkdən ötrü əməliyyatların diqqətlə öyrənilməsi zəruridir. Yalnız bundan sonra qeyri-adi iri məbləğli əməliyyatda sadəcə sizin müştərinin lotereyada qazandığını və ya öz nənəsindən var-dövlətin miras qaldığını müəyyən edə bilərsiniz. Müəyyən olunmuş halın (fəaliyyətin) şübhəli olması və daha ətraflı araşdırmaların tələb olunduğu barədə qərara gəldiyiniz halda MMO-ya ŞƏM göndərə bilərsiniz. Lakin müvafiq halın (fəaliyyətin) ŞƏM ötürülməsi üçün kifayət qədər şübhəli olmadığına dair qərara gəlsəniz, işin şübhəli olmamasına dair qərarınızı sənədləşdirməli (protokollaşdırmalı) və onları işin digər aidiyyəti təfərrüatları ilə birlikdə saxlamalısınız.

Müştərinin həyata keçirdiyi əməliyyatın müştəri üçün şübhəli olub-olmamasını müəyyən edən zaman bankın məsul şəxsi müştəri və əməliyyatı əhatə edən aşağıdakı müxtəlif amilləri ağlabatan şəkildə qiymətləndirməlidir:

- Müştərinin adi (normal), xarakterik məşğuliyyəti, biznesi və ya əsas fəaliyyəti;
- Müştərinin əməliyyat tarixçəsi;
- Müştərinin gəlir səviyyəsi və gəlir mənbələri;
- Müştəri tərəfindən həyata keçirilən əməliyyatların təyinatları;
- Müştərinin davranışı;
- Əməliyyatların tezliyi (sürəti);
- Əməliyyatların həcmi və mürəkkəbliyi;
- Əməliyyata cəlb olunmuş hər hansı digər şəxslərin eyniləşdirmə məlumatları (o cümlədən yerləşdiyi ərazi);
- Oxşar məşğuliyyət və ya biznes sahəsində olan müştərilərin adi və ya normal (tipik) maliyyə, biznes və ya əməliyyat təcrübələri, yaxud davranışları;
- Eyniləşdirmə sənədlərinin və digər sənədlərin əlçatanlığı;
- Digər mümkün meyarlar (indikatorlar).

Şübhəli hallar barədə məlumatın ən əsas mənbələrindən biri olan müşahidə monitorinqi üsulu üzrə əməliyyatların ilkin avtomatik təhlilini həyata keçirmək üçün avtomatlaşdırılmış xəbərdarlıq siqnallarından istifadə olunması tövsiyə edilir.

Avtomatlaşdırılmış xəbərdarlıq siqnalları (xəbərdarlıq sistemi)

Xəbərdarlıq siqnalı – avtomatlaşdırılmış monitorinq sistemində gözlənilən fəaliyyətin normaları (həddləri), hesab tarixçəsi, müştəri növləri, məhsul növləri coğrafiya kimi müxtəlif amillərə əsaslanan mümkün şübhəli fəaliyyətin potensial indikatorudur. Xəbərdarlıq həmçinin siyahılarda olan şəxslər, məhkəmə hökmü çıxarılmış şəxslər, mediadakı neqativ məlumatlar və s. üzrə əməliyyatların monitorinqi sistemindən kənarda hazırlana bilər. Mənbəyinə baxmayaraq, xəbərdarlığın şübhəli fəaliyyətin avtomatik indikatoru olması mütləq deyildir.

Potensial şübhəli halların aşkar edilməsi üçün əməliyyatlar müxtəlif səviyyələrdə monitorinq oluna bilər:

- *əməliyyat səviyyəsi* (adətən, əməliyyatın növü, tarixi, məbləği və s. ilə şərtlənir);
- *hesab səviyyəsi* (adətən, hesabın növü, statusu və s. ilə şərtlənir);
- *müştəri səviyyəsi* (adətən, aqreqə olunmuş əməliyyatları, VÖEN və ya digər unikal eyniləşdirmə məlumatı üzrə profil məlumatları ilə şərtlənir);
- *coğrafi səviyyə* (adətən, yüksək riskli coğrafi ərazilər, yaxud hər hansı məkanda fəaliyyətin qeyri-adi əlamətləri ilə şərtlənir);
- *digər səviyyə* (adətən, eyni ünvan, telefon nömrəsi və s. ümumi məlumat elementlərinə malik olan müxtəlif müştərilərin eyni hüquqi şəxsi təmsil etməsi və s.).

Şübhəli əməliyyatların monitorinqinin güclü proqramı qeyd olunmuş səviyyələrin kombinasiyasının monitorinqini özündə birləşdirə bilər. Banklar həmçinin qeyd olunan səviyyələr ilə kifayətlənməməli, *benefisiar mülkiyyətçini* (xüsusilə yüksək riskli əməliyyatlarda) də müəyyən etməlidirlər (Benefisiar mülkiyyətçinin müəyyən edilməsi ilə bağlı məsələlər ilə bağlı MMO tərəfindən hazırlanmış metodik vəsaitdən istifadə oluna bilər).

Bankda tətbiq olunan proqram təminatı şübhəli əməliyyatların monitorinqinin bütün sahələrini əhatə etməli, şübhəli əməliyyatların monitorinqi, ŞƏM hesabatlarının hazırlanması və MMO-ya təqdim olunması, müştəri barədə məlumatların saxlanılması, müştərilərin risk reytinqlərinin hesablanması, xüsusi siyahılar (yüksək riskli fiziki və hüquqi şəxslər, məhkəmə qərarları olan şəxslər, daxili siyahılar, PEP-lər, mediadakı neqativ məlumatlarda adı keçmiş şəxslər və s.) üzrə avtomatik axtarışların həyata keçirilməsi, açılmış işlərin idarə olunmasına imkan verməlidir.

Bankın monitorinq sistemi məlum və ya şübhəli hesab olunan terrorçuların, yaxud sanksiya tətbiq olunmuş fiziki və hüquqi şəxslərin əməliyyatlarını aşkar etmək imkanına malik olmalıdır. Pul köçürmələri ilə bağlı məlumatlara (mesajlara) daimi nəzarət olunması qətiyyətlə tövsiyə olunur. Pul köçürmələri konteksində "MT103" və "MT202 COV" mesajları (məlumatları) xüsusilə önəmlidir, çünki onlar müvafiq köçürməni göndərən və alan tərəfləri eyniləşdirir.

Əməliyyatların monitorinqi sistemi minimum müştərilərin profil məlumatlarının dəyişməsi kimi əsas informasiyanı yaratmaq qabiliyyətinə və müştəri, məhsul və ya qruplar üzrə mərkəzləşmiş informasiyanı təqdim etmək imkanına malik olmalıdır. Mərkəzləşmiş və geniş miqyaslı mənzərənin olması imkanı bankın bir neçə filialı tərəfindən xidmət olunan

müştərilərinin olduğu halda xüsusilə vacibdir. Bu funksiya bankın qeyd edilən müştərilərlə bağlı bütün riskləri nəzərə alımasına imkan verir.

Bundan əlavə, ŞƏM-in aşkar edilməsi və effektiv araşdırma prosesinin təmin edilməsi üçün aşağıdakı məsələlərə diqqət yetirilməsi zəruridir:

- ŞƏM-in göndərilib-göndərilməməsi barədə verilmiş qərar üçün əsasların iştirak etməyən tərəflərə göstərilməsi üçün adekvat şəkildə sənədləşmə ilə araşdırma sənədinin saxlanılması;
- Müştərinin ətraflı (yetərli) eyniləşdirilməsinin aparılması. Buraya bankın müştərilərin eyniləşdirmə və verifikasiya tədbirləri üzrə məlumatlarında olmayan və sonradan alınmış (nəzərdən keçirilən hesabın və ya əməliyyatların məqsədinin ilkin başa düşülməsindən faydalanmaq və media üzrə neqativ məlumatların araşdırmasını aparmaqla) məşğuliyyət və ya biznesin təbiəti barədə məlumatlar aid oluna bilər;
- Yalnız nəzərdən keçirilən əməliyyatların araşdırılması deyil, eləcə də verilmiş hesab və zəruri hallarda əlaqəli hesablar üzrə fəaliyyətin təbiətinə ağlabatan zaman dövrü üçün tarixi baxışın edilməsi. Bəzən ümumi baxış əvvəlki yarımil və ya əvvəlki il üçün, bəzən isə hesabın açılma tarixi üçün aparıla bilər;
- Aidiyyəti hesablar və tərəflər də daxil olmaqla, müştəri ilə bütün münasibətlərin araşdırılması.

2.2.2. Şübhəli əməliyyatlar barədə məlumatların təqdim olunması

Bu bölmədə bankların ŞƏM təqdim etmə üzrə hesabatlılıq öhdəliklərinin effektiv icrasını təmin edən məsələlər ümumi şəkildə şərh olunur (məsələnin bu və ya digər aspektləri barədə növbəti bölmədə ətraflı məlumat verilir).

Şübhəli əməliyyatın müəyyən edildiyi (ilkin təhlil əsasında) andan qısa müddət ərzində icra olunmamış statusda əməliyyat barədə məlumat MMO-ya təqdim olunmalıdır. Qanunla müəyyən edilmiş digər hallarda isə əməliyyatın icrasından dərhal sonra MMO-ya məlumat verilməlidir.

ŞƏM barədə məlumat MMO-ya ötürüldükdən sonra onun bir nüsxəsinin sizin məlumat bazasında qaldığına əmin olun və belə məlumatın qanunvericiliyin tələbinə uyğun olaraq müştəri ilə hüquq münasibətlərinə xitam verildikdən sonra ən azı 5 il saxlanılması təmin edilməlidir.

ŞƏM barədə MMO-ya məlumat təqdim etmək üçün PL/TM üzrə şübhəlilik əsaslarını müəyyən etməyə imkan verən tədbirlərin həyata keçirilməsi zəruridir. Belə tədbirlərə aşağıdakıları aid etmək olar:

- şübhəli əməliyyatların *yoxlanılması ("screening") və aşkar edilməsi*;
- şübhəli əməliyyatlarla əlaqəli *faktların və məzmunun (təsvirin)* qiymətləndirilməsi;
- *PL/TM indikatorlarının* faktların və məzmunun qiymətləndirilməsi ilə əlaqələndirilməsi;
- ŞƏM-də *şübhə üçün əsasların şərh olunması*: faktların, məzmunun və PL/TM indikatorlarının şübhəlilik əsaslarını necə aşkar etməsinin göstərilməsi.

ŞƏM-in hazırlanması baxımından *fakt* - hər hansı fikir (mülahizə) deyil, mövcud olan və ya baş verdiyi və ya mövcud olduğu məlum olan hadisə, hərəkət kimi müəyyən olunur. Məsələn, əməliyyat barəsində faktlara tarix, yer, məbləğ və ya növ aid ola bilər. Monitorinq iştirakçılarına məlum olan faktlara həmçinin hesab məlumatları, konkret fəaliyyət istiqamətləri, müştərinin maliyyə tarixi və ya fiziki/hüquqi şəxs barəsində

məlumatlar (məsələn, fiziki şəxsin hər hansı qanun pozuntusuna görə ittiham olunması, ittiham irəli sürülmüş təşkilata qarşı dələduzluq və ya istənilən digər cinayət faktı üzrə istintaqın aparılması) aid edilə bilər.

ŞƏM-in hazırlanması baxımından *məzmun* - vəziyyəti aydınlaşdıran, yaxud vəziyyəti və ya əməliyyatı izah edən məlumat olaraq müəyyən edilir (ŞƏM-in məzmunu barədə növbəti bölmələrin birində ətraflı məlumat verilmişdir). Bu növ məlumat verilmiş ssenaridə şübhəli ola bilən ilə ağlabatan ola biləni fərqləndirmək üçün vacibdir.

Əməliyyatın məzmununu aşağıdakılar vasitəsilə müşahidə etmək və ya anlamaq olar:

- fərdi fəaliyyətdə, yaxud işgüzar mühitdə baş verən hadisələr barədə ümumi məlumatlılıq;
- biznesiniz çərçivəsində olan xarakterik maliyyə fəaliyyətləri barədə məlumatlı olmaq;
- müntəzəm "öz müştərini tanı" ("KYC") fəaliyyətləri (məsələn, fərdin eyniləşdirmə məlumatlarını, onun peşə və fəaliyyətini, sərvətlərinin yaranma mənbələrini, onların xarakterik və ya gözlənilən əməliyyat davranışlarını və s.-i təsdiqləyən təfərrüatlar);
- risk əsaslı yanaşmanın tətbiqi nəticəsində əldə olunmuş məlumatlar;
- müştəri barədə əyani məlumatlar (məsələn, tərcümeyi-halı, davranışı və hərəkətləri).

Əməliyyat özü-özlüyündə şübhəli görünə bilməz. Lakin əməliyyat ilə əlaqəli əlavə məzmun elementlərinin nəzərdən keçirilməsi şübhə doğura bilər. Eləcə də əksinə, başlanğıcdan etibarən qeyri-adi və ya şübhəli görünə bilən müəyyən bir əməliyyatın məzmunu müştərinizin cari və keçmiş əməliyyatlarını yenidən qiymətləndirməyə və hazırkı vəziyyətdə onların ağlabatan olduğuna dair qərar verməyinizə səbəb ola bilər. Sizin PL/TM şübhələrinizin bir sıra elementləri (əməliyyatlar, faktlar, məzmun və PL/TM indikatoru ola biləcək və ya olmayacaq digər əlaqəli məlumatlar) qiymətləndirməniz əsasında meydana çıxacaqdır. Bu elementlərə birlikdə baxıldıqda, onlar sizin PL/TM şübhənizi dəstəkləyəcək və ya onu inkar edəcək bir mənzərə yaradırlar.

PL/TM indikatorları şübhə yarada biləcək və ağlabatan bir izah olmadan nəyinsə qeyri-adi ola biləcəyini göstərən potensial meyarlar, xəbərdarlıq əlamətləridir. İndikatorlar adətən, müştərinin əməliyyatları ilə bağlı olan pozuntuları müəyyən edən bir və ya bir neçə faktdan, davranış modelləri, şablonlarından və ya digər amillərdən qaynaqlanır. Bu əməliyyatlar çox vaxt müştərinizin əməliyyat fəaliyyətləri haqqında bildiyiniz faktlara və məzmuna əsaslanaraq gözlənilən və ya normal hesab edilənlərlə müqayisədə uyğunsuzluqları (ziddiyyətləri) göstərir.

Monitorinq subyektlərinin təmsil olunduğu hər bir sektor üçün müəyyən olunmuş şübhəlilik indikatorları MMX tərəfindən dövri olaraq yenilənərək MMX-nın saytında nəşr olunur. Müvafiq indikatorlar açılmış işlər, yüksək keyfiyyətli ŞƏM-lər və beynəlxalq təcrübənin və yeni çağırışların nəzərdən keçirilməsi və monitorinq subyektləri ilə məsləhət əsasında tərtib olunur (müvafiq sənəddə indikatorlar, onların mahiyyəti, şübhəlilik əsaslarının müəyyən olunması prinsipləri barədə ətraflı məlumat verilmişdir).

Eyni şübhəli hal barədə təkrar hesabatın göndərilməsi

Bir sıra hallarda bank tərəfindən müəyyən olunmuş və MMO-ya təqdim edilmiş şübhəli hal (əməliyyat və ya fəaliyyət) barədə məlumatdan sonra belə hal davam edir (məsələn, A şəxsi hesabatlılıq üçün hədd göstəricisindən bir qədər aşağı məbləğdə həftəlik əsasda

nağd pullar çıxarır). Müvafiq hallarda dövri olaraq (aylıq, həftəlik və s. olmaqla dövriliyi müvafiq halın risklilik dərəcəsini və prioritetliyini nəzərə almaqla özünüz müəyyən edə bilərsiniz) ŞƏM-lər təqdim etməklə MMO-nu xəbərdarlıq edin. Yeni (təkrar) ŞƏM hesabatında qeyd olunmuş subyektin adının əvvəlki ŞƏM hesabatında keçdiyi halda, son ŞƏM-ə tərəfinizdən MMO-ya təqdim olunmuş əvvəlki hesabatların nömrələrini (həddən çox olduğu halda ilk üçü və son üçü barədə) də daxil edin (daxili istifadə üçün olan nömrələri daxil etməyin).

Konfidensiallığın təmin olunması

ŞƏM barədə konfidensiallığın qorunması mühüm əhəmiyyətə malikdir, çünki belə məlumatların açıqlanması şübhəli şəxsi bu barədə məlumatlandıra və potensial olaraq araşdırmanı (istintaqı) təhlükə altında qoymuş olar. Əməliyyatlarla bağlı bəzi həqiqətlər açıqlana bilsə də, ŞƏM-in olmasını açıqlayan hər bir məlumat konfidensial olaraq qəbul olunmalıdır. Əslində, hər hansı ŞƏM-in icazəsiz açıqlanması qanunvericiliyi pozur.

ŞƏM-in konfidensiallığı maliyyə təsisatlarının, komplayens bölməsi əməkdaşlarının və ictimaiyyətin maraqlarının və təhlükəsizliyinin qarunması üçün həlledici əhəmiyyət kəsb edir. Belə ki, ŞƏM məlumatları şəxsi və konfidensial (həssas) maliyyə informasiyasına, eləcə də fiziki və hüquqi şəxslər barədə sübut olunmamış iddialara malikdir. Konfidensiallığın pozulması, öz növbəsində, ŞƏM hesabatlılıq sistemini və ŞƏM-lər əsasında istənilən cinayət fəaliyyətinin qarşısının alınması mexanzimini poza bilər.

2.3. ŞƏM-in araşdırılması prosesi və onun mərhələləri

Ümumiyyətlə, *araşdırma* - informasiyaya məna verməkdən ötrü onun şərh olunma prosesinin təsviri üçün istifadə olunur. Sadə şəkildə desək, *araşdırma* – fəaliyyət üçün hazırlanmış, əldə olunmuş bilikdir, yaxud emal və təhlil edilmiş informasiyadır.

Monitorinq iştirakçılarında araşdırma prosesi MMO-nun araşdırma prosesinə analoji qaydada aparılır (bəzi mərhələlər, eləcə də resurslar istisna olmaqla). Bu baxımdan, banklarda ŞƏM-in vahid araşdırılması prosesini şərti olaraq aşağıdakı mərhələlərə ayırmaq olar:

1) Araşdırma prosesinin planlaşdırılması (istiqamət) və məsələnin qoyuluşu;
2) Məlumatların toplanması və qiymətləndirilməsi;
3) Məlumatların sistemləşdirilməsi (emalı, müqayisəsi və sortlaşdırılması);
4) Məlumatların inteqrasiyası, təhlili, hipotezalar irəli sürmə və nəticələr çıxarma;
5) Təhlilin nəticələri üzrə yazılı hesabatın hazırlanması və məlumatın MMO-ya ötürülməsi (nəticələrin təqdim edilməsi);
6) Təqdim edilmiş məlumat müqabilində MMO tərəfindən geriyə məlumatlandırma və tələblər.

Mərhələ 1. Araşdırma prosesinin planlaşdırılması və məsələnin qoyuluşu

Planlaşdırma və məsələnin qoyuluşu - hər bir təhlil üçün ayrılıqda həyata keçirilir. Bu mərhələ analitik məhsulun istifadəçisinin (MMO, HMO) tələblərinin (ehtiyaclarının) aydınlaşdırılmasından və informasiyaya olan tələbdən başlayaraq son istifadəçiyə yekun analitik təhlil hesabatının təqdim olunmasınadək bütün işə rəhbərliyi birləşdirir. Planlaşdırmanı lazımi şəkildə həyata keçirmək üçün analitik məhsulun istifadəçisinin ehtiyaclarını başa düşmək lazımdır.

Mərhələ 2. Məlumatların toplanması və qiymətləndirilməsi

Araşdırma prosesi məlumatların əldə edilməsi və ondan istifadə olunması bacarığına əsaslanır. Burada ilk pillə məlumatların toplanması və zəruri qaydada saxlanılmasıdır (elektron, kağız formatlarında). Bu mərhələdə bankın analitiklərinin təhlil gedişində istifadə edəcəkləri ilkin emal edilməmiş informasiya yığımı həyata keçirilir. Belə məlumatlar özündə maliyyə əməliyyatları, eləcə də açıq və qapalı mənbələrdən olan digər informasiyanı əks etdirir. Bu mərhələdə analitiklər daha diqqətli olmalıdır. Əgər sonrakı mərhələlərdə informasiyada boşluq aşkar edilərsə, planlaşdırma mərhələsinə qayıtmalı və çatışmayan informasiyanı toplamaq və ya işi onsuz davam etdirmək barədə qərar qəbul etməlisiniz. Yeni informasiyaya ehtiyac olduğu halda həmin informasiyanın həyata keçirdiyiniz təhlilin predmetinə və ya həcminə təsir edib etməməsini, təsir etdiyi halda hansı dərəcədə təsir etməsini müəyyən etməlisiniz. Təhlil üçün zəruri olan informasiya kateqoriyaları, məlumatların konkret elementləri, onların mümkün əldə edilmə mənbələri və üsulları strukturlaşdırılmış formada planlaşdırılmalıdır. Məlumatların axtarışı və toplanması zamanı müvafiq informasiyanın əldə edilməsinin rəsmi olaraq son müddətini müəyyən etmək məqsədəuyğundur.

Beynəlxalq təcrübədə əldə olunacaq informasiya mənbələrinin açıq, qapalı və təsnifləşdirilmiş olmaqla 3 əsas növü mövcuddur:

- *Açıq mənbə məlumatları* hamı üçün əlçatan məlumatlardır. Açıq mənbə məlumatlarının daha çox nəzərəçarpacaq alt qrupu "boz ədəbiyyat" adlanır. O, tədqiqat işləri, texniki və iqtisadi hesabatlar, "rəsmi sənədlər", konfrans, diskusiya sənədləri, tematik informasiya bülletenləri və sairdən ibarət ola bilər. Bu növ məlumat mənbəyi ilə işin əsas çətinliklərindən biri belə məlumatların çox vaxt qərəzli, dəqiqləşdirilməmiş və sensasisyon məlumatların qiymətləndirilməsi ilə bağlı olmasıdır.
- *Qapalı informasiya mənbəyi* geniş kütləyə çatma imkanı məhdud olan müəyyən bir məqsəd üçün toplanan məlumatlardır. Qapalı mənbə məlumatlarına çox vaxt strukturlaşdırılmış verilənlər bazası şəklində rast gəlinir. Cinayət araşdırması kontekstində müvafiq verilənlər bazalarına geniş fərdi məlumatlar, yaxud məhkumluq, nəqliyyat vasitələrinin qeydiyyatı və c. məlumatlar daxildir.
- *Təsnif edilmiş, yaxud məxfi məlumatlar* – xüsusi olaraq bu məqsədlə təyin olunmuş gizli vasitələrlə (insan və texniki mənbələrin istifadəsi də daxil olmaqla) toplanan məlumatlardır. Adətən, yüksək dəqiqliyi ilə seçilən təsnif edilmiş məlumatlardan istifadə analitik məhsulun keyfiyyətini əhəmiyyətli dərəcədə artıra bilər. Bununla yanaşı, açıqlanmasına məhdudiyyət tətbiq edilməsi səbəbindən müvafiq analitik məhsulu əhəmiyyətli dərəcədə az təsirli hala gətirə bilər.

Açıq mənbələrdən istifadə çox vaxt son məhsula əlavə etibarlılıq verir və ya daha qapalı və ya gizli məlumatların toplanmasına səbəb olur. Bundan əlavə, kəşfiyyat məlumatlarının əhəmiyyətli hissəsi (bəzən hətta 80%-i) açıq mənbə məlumatlarından əldə oluna bilər. Bu məqsədlə, araşdırmanı həyata keçirən analitiklərə açıq mənbələr ilə iş vərdişlərinə ("OSINT") dair müntəzəm təlimlər keçirilməlidir.

Araşdırma prosesinin məlumatların toplanması mərhələsində bank tərəfindən aşağıdakı *mümkün mənbələrdən* məlumatlar əldə oluna bilər:

- bankın daxili məlumat bazaları / arxivi;
- müştəri (yaxud nümayəndə) tərəfindən təqdim edilən sənədlər;
- müştərinin və əməliyyatla bağlı olan digər şəxslərin ifadələri (bu məlumatlar müştəri ilə ünsiyyətdə olan müvafiq bank əməkdaş(lar)ı tərəfindən əldə olunur);

- Bank tərəfindən əvvəllər aparılmış araşdırmalar və təhlil hesabatları üzrə məlumatlar;
- araşdırmalar ilə bağlı xarici ölkələrin bankdan əldə edilmiş məlumat və sorğular;
- "World-Check", "Factiva", "Accuity" kimi özəl şirkətlərin beynəlxalq elektron məlumat-axtarış bazaları;
- hüquqi şəxslərə dair kommersiya məlumatları barədə "Dun & Bradstreet" və s. kimi məlumat bazaları;
- kütləvi informasiya vasitələri, internet (müxtəlif axtarış sistemləri, xarici ölkələrin hüquqi şəxslərinin reyestr məlumatları, xəbər saytları, sosial şəbəkə səhifələri və s.);
- Azərbaycan Respublikasının dövlət qurumlarının məlumat bazaları (elektron hökumət portalı üzrə xidmətlər, ölkədən çıxışına qadağa qoyulmuş şəxslərin siyahısı və s. məlumatlar);
- Azərbaycan Respublikasının dövlət qurumları tərəfindən verilmiş məlumat və sorğular;
- Xarici beynəlxalq təşkilatların məlumat bazaları ("BMT" sanksiya siyahıları, digər ölkələrin sanksiya siyahıları, "PEP"-lər və s.);
- digər mənbələr.

Bir nəticənin etibarlılığı, həmin nəticənin əsasında dayanan məlumatların keyfiyyəti ilə birbaşa bağlıdır. Beləliklə, araşdırma mərhələsinin əsas elementi olan məlumatların qiymətləndirilməsi məlumat təminatçısı olan mənbənin etibarlılığının, məlumatın düzgünlüyü və dəqiqliyinin (informasiyanın keyfiyyətinin) ayrıca qiymətləndirilməsini tələb edir. Mənbə və faktiki məlumat bir-birindən asılı olmayaraq ayrılıqda qiymətləndirilməlidir və bu səbəbdən də hesabatı hazırlayan şəxsin qiymətləndirmə sistemi haqqında müfəssəl biliyə sahib olması çox vacibdir. Bu məqsədlə müxtəlif qiymətləndirmə sistemlərindən (əsasən, 4x4 və 6x6 sistemləri) istifadə olunur.

Mərhələ 3. Məlumatların sistemləşdirilməsi (emalı, müqayisəsi və sortlaşdırılması)

İnformasiyanın təhlili prosesinə başlamazdan əvvəl hər bir məlumatı əhəmiyyətlilik predmetinə görə yoxlamaq lazımdır. Təhlil və qiymətləndirmə mərhələsində toplanmış informasiyanın əhəmiyyətlilik və yararlılıq dərəcəsini bilmək lazımdır. Toplanmış informasiyanın əhəmiyyətini (yararlılığını) müəyyən etdikdən sonra onun əhəmiyyətini maksimum dərəcədə yüksəltmək üçün informasiya nizamlı hala salınmalı və ya sistemləşdirilməlidir. Burada informasiyanın sistemləşdirilməsi üçün seçilmiş üsul müxtəlif ola bilər və bankın, analitiklərin və ya mövcud araşdırmanın konkret tələblərindən asılıdır. İnformasiyanın adekvat sistemləşdirilməsi mövcud əlaqələri aşkar etməyə, mühüm hadisələri, fəaliyyət sxemlərini müəyyən etməyə, informasiyadakı boşluqları aşkar etməyə və toplanmış məlumatların əhəmiyyətliliyini dəqiqləşdirməyə imkan verməlidir.

Sistemləşdirmə (emal və sortlaşdırma) - toplanmış informasiyanın və/ və ya məlumatın elektron məlumat bazasına sürətli və dəqiq girişə imkan verən strukturlaşdırılmış formatda (indekslənmiş, qarşılıqlı istinada malik) ötürülməsidir. Bu, informasiyanın toplanması zamanı əldə edilmiş hər bir məlumat və ya sənədin toplu saxlanılması demək deyildir. Müvafiq mərhələdə əhəmiyyətsiz, səhv və faydasız məlumatlar kənarlaşdırılır.

Təhlil mərhələsinə keçməzdən əvvəl məlumatların strukturlaşdırılmış formatda saxlanılması mühüm əhəmiyyət kəsb edir. Bank həmçinin strukturlaşıdırlmış məlumatların idarə olunması üçün adekvat infrastruktura malik olmalı, məlumatları təhlil etmək üçün zəruri alətlərlə təmin edilməlidir. Böyük ölçülü banklar vizual analitik alətlərdən ("Spotfire", "Tableau", "Qlikview" və s. kimi) istifadə edə bilərlər.

Mərhələ 4. Məlumatların inteqrasiyası, təhlili, hipotezalar irəli sürmə və nəticələr çıxarma

Araşdırma prosesinin özəyini təhlil təşkil edir. *Təhlil* – mürəkkəb olan predmetin tərkib hissələrinə ayrılması, bu tərkib hissələrinin hər birinin və tamın tərkibində onların qarşılıqlı əlaqələrinin öyrənilməsi, iki və ya daha çox faktın müqayisə edilməsi, səbəb-nəticə və digər əlaqələrin və onların tama münasibətlərinin müəyyən edilməsi üçün faktların formal müqayisəsidir. *Təhlil* - mövcud məlumatların məzmununun (mənasının) və əsas xüsusiyyətlərinin dərindən öyrənilməsi üçün informasiyanın diqqətlə yoxlanılması kimi təsvir edilə bilər. Təhlil informasiyadakı boşluqları, güclü və zəif tərəfləri aşkar edir və irəliləyiş yollarını təklif edir. Təhlilin əhatə dairəsi və ümumi etibarlılığı analitiklərin vərdişləri ilə birlikdə əldə edilmiş məlumatların səviyyəsindən və dəqiqliyindən asılıdır.

Bu mərhələdə *təhlil* prosesinin özü aşağıdakı ardıcıl *mərhələlər* ilə həyata keçirilir:

1. Əldə edilmiş məlumatların yoxlanılması və inteqrasiyası;
2. İşçi hipotezanın hazırlanması;
3. Zəruri əlavə informasiyanın toplanması, qiymətləndirilməsi və yoxlanılması;
4. İlkin şərtlərin müəyyən olunması;
5. Nəticələrin çıxarılması;
6. Arqumentlərin qurulması.

Müvafiq mərhələlər və onlar üzrə həyata keçirilən tədbirləri sxematik olaraq aşağıdakı kimi müəyyən etmək olar:



(1) Əldə edilmiş məlumatların yoxlanılması və inteqrasiyası

Məlumatların əldə edilməsi, yoxlanılması və inteqrasiyası analitik təhlil prosesinin ilk mərhələsidir. Bu mərhələdə təhlili həyata keçirən analitik toplanmış bütün məlumatları götürüb hərtərəfli oxumalı olacaqdır. Hər bir informasiya fraqmentinin əhəmiyyətini başa düşdüyünüzə əmin olmaq vacibdir. Bir çox hallarda araşdırma məsələləri bir sıra alt məsələlərə malik olur. Belə olduğu halda, daha sonra nəzərdən keçirilə biləcək alt məsələlərin hər birini sadalamaq (siyahısını hazırlamaq) və müzakirə olunacaq əsas məsələləri saxlamaq daha yaxşıdır. Məlumatların ilkin qiymətləndirilməsinin düzgünlüyünə əmin olmaqdan ötrü siz hər zaman informasiyanın hər bir hissəsini ətraflı şəkildə nəzərdən keçirməlisiniz. Bu mərhələdə, siz daha sonra nə olacağını (hansı addım

olacağı) əks etdirən biliklə silahlanacaqsınız. Məhz bu hissədə bütün informasiyanın toplanması xüsusilə dəyərli ola bilər. Araşdırma çərçivəsində müəyyən olunmuş məsələlər üzrə irəlilidikcə, bu prosesi bir sıra hallar üzrə təkrarlamaq vacibdir. Həmçinin bu zaman bir vaxtlar əhəmiyyətsiz görünən məlumatlar faydalı ola bilər və daha əvvəl müəyyən etmədiyiniz əlaqələri də təyin edə bilərsiniz. İnformasiya fraqmentlərini ətraflı şəkildə nəzərdən keçirərkən informasiyada hər hansı ümumi prinsip və ya qaydanın işlədiyini göstərən qanunauyğunluqları və ardıcıllıqları diqqətlə axtarın. Özünüzə aşağıdakı sualları verin:

- Məlumatları necə şərh edə bilərsiniz?
- Bu niyə məhz belə baş verdi?
- Bunlar məndə olan digər məlumatlarla əlaqəlidirmi?
- Bütün bunların inandırıcı (ağlabatan) bir izahı varmı?
- Bu problemləri həll etmək üçün daha nələri bilməliyəm?

Siz malik olduğunuz informasiya və biliyinizdə uyğunluqları, uyğunsuzluqları, səhvləri, sadə anlaşılmazlıqları və boşluqları axtarmalısınız.

Bu mərhələ özündə nəticələrin ifadə edilməsinə hazırlaşmaq üçün müxtəlif mənbələrdən olan məlumatları birləşdirməyi, əldə edilmiş məlumatlardan da uzağa gedərək onlara məna verməyi nəzərdə tutur. Müvafiq informasiyanı göstərmək üçün aşağıdakı müxtəlif üsullardan istifadə oluna bilər ki, bunlardan da ən çox yayılmışı qrafik metodlarıdır:

- *Əlaqələr diaqramı* – araşdırmada iştirak edən obyektlər arasındakı əlaqələri (münasibətləri) göstərmək;
- *Hadisələr diaqramı* – obyektlər və ya hadisələrin ardıcıllıqları arasındakı xronoloji münasibətləri əks etdirmək;
- *Mal axınları diaqramı* – pulların, narkotiklərin, oğurlanmış malların və ya digər malların hərəkətini öyrənmək;
- *Fəaliyyət qrafiki* – qanunsuz əməliyyatlara cəlb olunmuş fəaliyyətləri müəyyən etmək;
- *Maliyyə profilləşdirməsi* – fiziki və ya hüquqi şəxslərin gizli gəlirlərini və iqtisadi cinayət indikatorlarını müəyyən etmək;
- *Tezlik diaqramları* – kəmiyyət məlumatlarını sistemləşdirmək, ümumiləşdirmək və şərh etmək;
- *Məlumatların korrelyasiyası* – müxtəlif dəyişənlər (göstəricilər) arasındakı qarşılıqlı əlaqəlilikləri (asılılıqları) təsvir etmək üçün istifadə olunur.

Monitorinq subyektlərinin məsul şəxsləri analitiklərin müvafiq metodlar və onların tətbiqi barədə təlimlərdə iştirakını təmin etməlidir.

Qısaca ifadə etsək, məlumatların təhlilinin birinci mərhələsində informasiya haqqında ümumi təsəvvürə malik olmaq üçün o hissələrə ayrılır, detallara diqqət yetirilir, sxemlər və oxşar konsepsiyalar axtarılır, informasiyada olan istənilən boşluq, uyğunsuzluq və ya digər nöqsan, eləcə də hadisələrin ardıcıllığı və mümkün əlaqələr tapılaraq qeyd edilir.

(2) İşçi hipotezanın (fərziyyənin) irəli sürülməsi

Analitik prosesdəki növbəti addım *işçi hipotezanın* irəli sürülməsidir ki, bu da faktlardan kənara çıxmağı tələb edir. Təhlildə informasiyanın aktuallığını müəyyən etmək üçün inteqrasiya zamanı maksimum miqdarda informasiyanın qiymətləndirilməsi tələb olunur. Prosesin əvvəlində hər hansı məlumatın istisna edilməsi asanlıqla mümkün zəruri məlumatın diqqətdən kənarda qalmasına və nəticədə səhv təhlilə səbəb ola bilər.

Bu mərhələdə ilkin işçi hipoteza inkişaf etdirilir və ya o, modifikasiya olunur.
Yadda saxlamaq lazımdır ki, *hipoteza* – baş vermiş hadisənin izah edilməsi cəhdi üçün irəli sürülmüş nəzəri təsdiqdir (mülahizədir). Bu, nəzəriyyə olmaqla, dəqiqləşdirilməsi üçün əlavə məlumatlar tələb edir. Əlavə məlumatlar hipotezanı təsdiq, yaxud inkar edə bilər. Hipoteza müəyyən olunmuş (araşdırılan) hal üzrə kim, nə, nə vaxt, harada, necə və niyə suallarını cavablandırmalıdır.

Qısa ifadə etsək, məlumatların təhlilinin ikinci mərhələsində əməliyyatın strukturunda kim, nə, nə vaxt, harada, necə və niyə suallarına cavab axtarılmaqla nəyin baş verməsi barədə, yəni əməliyyatın real məqsədinin müəyyən edilməsi üzrə ilkin ehtimallar (hipotezalar) irəli sürülür. Bu ehtimallarla yuyulma əlamətləri və buraya kimlərin cəlb olunması, predikativ cinayətlərin hansılar olması və s. zəruri suallar cavablandırılmağa çalışılır.

Belə ki, verilmiş informasiya barədə tənqidi suallar verilmirsə, belə informasiya faydasız informasiyadır. ŞƏM-lərin formalaşdırılması üçün sözügedən kim, nə, harada, nə vaxt, necə və niyə suallarının verilməsi zəruridir. Əsas diqqət şübhəli fəaliyyətin (halın) nə üçün baş verməsi sualı üzərində cəmləşdirilməlidir.

Əlaqələr diaqramı şəklində verilmiş, çeşidlənmiş, qruplaşdırılmış və ya elektron cədvəl formasında ümumiləşdirilmiş informasiyaya tənqidi suallar verilmədiyi halda, onlar faydasız məlumatlar olacaqdır. Çox nadir hallarda elektron cədvəllərdən və əlaqələr diaqramından hipoteza ortaya çıxa bilər. Analitik özü əhəmiyyətli qanunauyğunluqlar və ya şübhəlilik meyarları axtarışında müxtəlif məlumat sahələri üzrə informasiyanı çeşidləməli, qruplaşdırmalı və ya yekunlaşdırmalıdır. ŞƏM-in oxunuşunda və əlavə araşdırmalar zamanı kim, nə, harada, nə vaxt, necə və niyə sualları aydın olacaqdır. Analitik əsas diqqətini hadisənin (halın) nə üçün baş verdiyi sualı üzərində cəmləşdirməlidir. Mümkün hipoteza formalaşdırıldıqdan sonra həmin hipotezanın təsdiqlənməsi üçün analitikə əlavə məlumatlar lazım olacaqdır. Əgər ŞƏM-də şübhəli hal yalnız bank əməkdaşının müştərinin davranışı barədə şifahi məlumatına əsaslanırsa, analitiklər günahsız insan barəsində araşdırma aparılması ehtimalından ehtiyatlanmalıdırlar. Belə hallarda hipotezanı sübut etməyin ən etibarlı və düzgün üsulu – hipotezanı inkar etməyə (əksini fərz etmə) cəhd etməkdir. Əgər bu yol ilə siz hipotezanı inkar edə bilməsəniz, yəni baş verən hadisənin ağlabatan izahını tapa bilməsəniz, bu hadisənin qanunsuz fəaliyyətlə bağlı olma ehtimalı yüksək olacaqdır. Məsələn, bəzi növ qeyri-adi və ya şübhəli əməliyyatları internet və xəbərlər bazası vasitəsilə yoxlamaqla izah etmək olar.

Məsələn, ilk baxışda, yəni araşdırma aparmadan aşağıdakı ŞƏM nümunəsində verilmiş məlumat şübhəli görünə bilər: xarici əlaqələri olan xeyriyyə təşkilatına rəhbərlik edən qadın təşkilatın hesabından iri məbləğdə nağd pul vəsaiti çıxarmış və onu xarici ölkəyə göndərmişdir. İlk baxışda, belə fəaliyyət çox şübhəli görünürdü, lakin xəbərlərdə verilmiş məqalələrin araşdırılmasından sonra sənədli filmdə həmin qadının parçalanmış bir ölkədə xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan humanitar yardım üzrə işçi olduğu aydın oldu.

Aşağıda ŞƏM və ya digər maliyyə məlumatlarının təhlili zamanı meydana çıxa bilən tənqidi suallara nümunələr verilmişdir. Bu yol ilə əməliyyatların izah edilməsinə yardım edə bilən anomaliyaları tapmağa çalışmalıyıq.

Təhlil üçün tənqidi suallara nümunələr:
Əməliyyatın, sövdələşmənin məqsədi nədir?
Bu birdəfəlik xarakterli əməliyyatdırmı?

Sövdələşmədə başqa hansı maliyyə institutları iştirak edib?
Bir neçə şəxs iştirak edirsə, onlar öz aralarında əlaqəlidirmi?
Əməliyyatların tarixlərində hər hansı qanunauyğunluqlar əks olunubmu?
Əməliyyatların məbləğində hər hansı qanunauyğunluqlar əks olunubmu?
Əməliyyatların tezliyində dəyişiklik müşahidə olunurmu?
Əməliyyatların məbləğində dəyişiklik müşahidə olunurmu?
Əməliyyatların sxemlərində dəyişiklik müşahidə olunurmu?
Hər hansı bir əməliyyat müvafiq fiziki və / və ya hüquqi şəxslərin yerləşdiyi ərazinin yaxınlığında baş verirmi?
Sövdələşmə son nəticədə kimə fayda verir?

Həmçinin yadda saxlamaq lazımdır ki, maliyyə cinayətləri və terrorçuluq fəaliyyətləri araşdırılarkən əsas məsələ vəsaitin son istifadəçisinin (sahibinin) aydınlaşdırılmasıdır.

Ümumi araşdırma prosesində olduğu kimi, təhlil yalnız bir mərhələ üzrə baş vermir. Təhlilin məqsədi hipotezanın formalaşdırılması olduğundan, belə hipotezanı yoxlamaq zərurəti də meydana çıxır. Hipotezanın yoxlanılması isə çox vaxt əlavə araşdırmalar tələb edir ki, bu da öz növbəsində hipotezanın təsdiqlənməsi və ya inkar olunması məqsədilə təhlil edilməlidir.

(3) Zəruri əlavə informasiyanın toplanması, qiymətləndirilməsi və yoxlanılması

Tərəfinizdən müəyyən olunmuş hipoteza onu təsdiq və ya təkzib etmək üçün çatışmayan zəruri informasiyanı müəyyən edə bilər. Hipotezanı təkzib etmək cəhdləri çox vaxt onu sübut etmək cəhdlərindən daha məhsuldar olur. Siz hipotezanı təsdiqləyən çoxlu nümunələr tapa bilərsiniz, lakin onun təkzib edilməsi üçün bir nümunə belə kifayət edir.

Məsələn, uzun illər, təxminən 1800-cü ilə qədər bioloqlar bütün qu quşlarının ağ olduğunu hesab edirdilər (yəni belə bir hipotezanı təsdiqləyirdilər). Aşkar olunan hər yeni qu quşu da ağ rəngdə idi ki, bu da müvafiq hipotezanı dəstəkləyirdi. Lakin avropalılar Avstraliyada məskunlaşdıqdan sonra kimsə qara bir qu quşuna rast gəldi. Hamının qu quşunun yalnız ağ olduğunu düşündüyünü nəzərə alsaq, bu hal həqiqətən təəccüb doğururdu.
Buna görə, hansı sayda ağ qu quşunun bu hipotezanı dəstəkləməsindən asılı olmayaraq, tək bir qara qu quşu bütün qu quşlarının ağ olduğu fərziyyəsini təkzib edir.

Bundan əlavə, əgər sizin bir neçə işçi hipotezanız varsa, əlavə məlumatlar onlardan ən uyğun birini seçməyə qərar verməyinizə kömək edəcəkdir. Hipotezaların yoxlanması obyektivlik, mühakimə və yaradıcı düşüncə tələb edir. İndikatorların (şübhəlilik meyarlarının) müəyyənləşdirilməsi də analitik prosesin mühüm tərkib hissəsidir. İndikatorlar sizin işçi hipotezada nə və nə vaxt suallarını müəyyənləşdirməkdə xüsusilə faydalı ola bilər.

Qısa ifadə etsək, məlumatların təhlilinin 3-cü mərhələsində əldə edilmiş əlavə informasiyalar hesabına əvvəl irəli sürülmüş işçi hipoteza bir daha yoxlanılır, onda boşluq və ya nöqsanların mövcud olub-olmaması müəyyən edilir. İrəli sürülmüş işçi hipotezanı sübut edən və ya onu inkar edən indikatorların olub-olmamasına baxılır. Bu mərhələdə ümumiyyətlə irəli sürülmüş hipotezanı yoxlamağa imkan verən informasiyanı toplamağın mümkün olub-olmaması əvvəlcə qiymətləndirilir. Əvvəlcədən hər hansı işçi hipotezanın olmadığı halda, əldə edilmiş əlavə informasiya alternativ hipotezalardan hansının daha münasib olması haqqında qərar qəbul etməyə imkan verir. Link təhlilləri və vizuallaşdırma kimi analitik alətlərin köməyi ilə əsas hesablar və şəxslər arasında əlaqənin sxemi qurulur.

(4) İlkin şərtlərin müəyyən olunması

Məntiqi nəticə çıxarma prosesində ilkin şərtlər faktları və ya informasiya fraqmentlərini müəyyən etmək üçün istifadə olunur ki, bunlar da birlikdə müəyyən nöqteyi-nəzəri (fikri) təşkil edir. İlkin şərtlər – məlumatların həqiqi təhlili prosesində ilkin və əsas mərhələdir. İlkin şərtlərin necə müəyyən olunmasının başa düşülməsi nəticələrin çıxarılması üçün həlledici əhəmiyyət kəsb edir. İlkin şərtlər təsvir olunan məlumata ən yaxın həlqədir və nəticə etibarilə də məlumatların daha obyektiv və dəqiq təsviridir. Müəyyən informasiya toplusundan əldə edilmiş istənilən verilmiş ilkin şərtlər dəsti üçün müxtəlif nəticələrin təklif olunması məqsədilə ilkin şərtləri müxtəlif üsullarla kombinasiya etmək olar.
Bu mərhələdə informasiya vahid ideya və ya konsepsiya əsasında qruplaşdırılır. *İlkin şərt* informasiyanın müəyyən bir hissəsinə və ya onun hissələri arasındakı əlaqələrə əsaslanan təsdiqdir. Digər ilkin şərtlər ilə birlikdə onlar nəticənin təsdiq edilməsi üçün istifadə oluna bilər. İlkin şərtlər həmçinin ehtimalı artıra və ya azalda bilər. Burada mühüm məsələ nəticəni və ya hipotezanı təsdiq və ya təkzib edən ilkin şərtləri (hüquq mühafizə orqanının məlumatı, ŞƏM, KİV, maliyyə məlumatı və s. kimi) tapmaqdır.

(5) Nəticələrin çıxarılması

İlk həqiqi analitik məhsul nəticə çıxarmadır. Nəticə çıxarma ilkin şərtlərdən irəli gəlir, burada geniş yayılmış səhvlərdən biri intuitiv olaraq bir nəticə çıxarmaq, daha sonra isə onu dəstəkləyəcək ilkin şərtlər axtarmaqdır.
Bu mərhələdə işçi hipotezanın təkmilləşdirilmiş və yoxlanılmış variantı hazırlanır. Əlavə informasiyanın əldə edilməsi əsasında yekun nəticə təkmilləşdirilə bilər. İlkin şərtlər nəticənin hər bir hissəsi ilə əlaqəli olmalıdır. Nəticə faktlar, fikirlər və digər nəticələr əsasında tərtib edilmiş gerçəkliyin ən yaxşı qiymətləndirilməsi olmaqla, özündə ehtimalın (hipotezanın) təsdiqini ifadə etməlidir. Nəticə iki hissədən ibarətdir: nəzəriyyə və ehtimal (hipoteza). İrəli sürülmüş hipoteza dəqiqləşdirildikdən və yoxlanıldıqdan sonra nəticə çıxarılması çox asan olur. Hipoteza əsasında isə nəzəri fikirlər irəli sürülür. Hipotezanın mütləq şəkildə ehtimal barədə təsdiqə malik olmamasına baxmayaraq (halbuki biz bunu etməyə təşviq edirik), nəticə ehtimal barədə təsdiqə malik olmalıdır. Əgər siz hələ də ehtimalı daxil etməməsinizsə, bu mərhələdə onu etmək zəruridir. Ehtimalın səviyyəsini müəyyən edərkən konservativ olun. Ehtimal səviyyəsini yüksək qiymətləndirməkdənsə, aşağı qiymətləndirmək daha yaxşıdır. Analitik kimi sizin barədə rəy, etdiyiniz qiymətləndirmənin nə dərəcədə düzgün olması barədə mülahizəyə əsaslanacaqdır.

(6) Arqumentlərin irəli sürülməsi

Bu mərhələdə ilkin şərtlər məntiqi və dəqiq formatda birləşdirilir və nəticə müəyyən edilir. Bu son mərhələ olmaqla analitikin irəli sürdüyü arqumentin (sübutun, əsaslandırmanın) qurulması və onun sənədləşdirilməsindən ibarətdir. Təhlilin effektivliyi üçün siz addımları ilkin şərtlərin məntiqi axınına bölməlisiniz (nəticələri əldə etmək üçün). Bu sizin arqumentinizdir (sübutunuzdur). Əgər təhlillərinizin keyfiyyəti yüksək və arqumentləriniz məntiqi olarsa, təklif etdiyiniz məsləhətin əsaslı olması ilə MMO və hüquq mühafizə orqanının (HMO) razılaşma ehtimalı da yüksək olacaqdır.

İlk üç mərhələdə əsas təhlil metodları kimi əlaqələrin təhlili (“link analysis”), klaster təhlilləri (“cluster analysis”) və digər təhlil metodlarından istifadə edilir (*əlavə 3-də* bu metodların əsasları barədə ətraflı məlumat verilib).

Qeyd:
Ümumiyyətlə, nəticə çıxarmanın 4 növü mövcuddur:

- *Hipoteza* – təsdiq və ya rədd üçün əlavə məlumat tələb edən ilkin izah, nəzəriyyədir;

- *Proqnoz* – gələcəkdə nə baş verəcəyi barədə nəticə çıxarma;
- *Qiymətləndirmə* – verilmiş nümunə (müşahidə) əsasında ümumi haqqında nəticə çıxarma (adətən, təbiəti etibarilə kəmiyyət qiymətləndirməsi olur);
- *Nəticəyə gəlmə* - yaxşı dəstəklənə bilən izahdır.

Qeyd etmək lazımdır ki, bütün nəticələrin fakt (həqiqət) kimi qəbul edilməsindən əvvəl müəyyən bir şəkildə test edilməsi tələb olunur. Hipoteza və ya hər hansı nəticə özündə kim? (əsas fiqurantlar), nə? (cinayət fəaliyyətləri), necə? (əməliyyat metodu), harada? (coğrafi çərçivə), nə üçün? (motiv), nə vaxt? (zaman çərçivəsi) suallarına cavabı birləşdirməlidir.

Məlumatların təhlili mərhələsində (4-cü mərhələ) istifadə olunan əməliyyatların təhlilinə nümunə

Əməliyyat təhlilləri PL/TMM üzrə monitorinqin mühüm hissəsini təşkil edir. Hesab və ya digər bank uçotu məlumatları üzrə əməliyyatların təhlili zamanı ilk əvvəl əməliyyatların məbləğlərinə və hesab qalıqlarına diqqət yetirilir, ŞƏM, cari əməliyyatlar, köçürmələr və digər növ əməliyyatlar təhlil olunur və PL/TM və digər şübhəli halları göstərən şübhəli əməliyyat sxemləri müəyyən edilir.

Banklar tərəfindən effektiv təhlilin həyata keçirilməsi məqsədilə hesab profili məlumatları yaradılır və müntəzəm yenilənir. *Hesab profili* - hesab və onun sahibi barədə maliyyə təsisatı tərəfindən toplanılmış məlumatlar olmaqla, hesab üzrə əməliyyatların həcmi, sürəti və məbləği üzrə gözlənilən qanunauyğunluqları (modeli) müəyyənləşdirir. Profildən istənilən kənarlaşma ŞƏM üçün indikator ola bilər.

Hesabın profil məlumatlarında hesabın təyinatı, istifadə ediləcək məhsul və xidmətlərin növü, hesab üzrə gözlənilən fəaliyyət, müştərinin sərvətinin mənbəyinin təsviri və tarixi, müştərinin maliyyə hesabatları da daxil olmaqla təxmin edilən (qiymətləndirilən) xalis sərvəti, hesabdakı vəsaitlərin cari mənbəyi, müştərinin reputasiyasını təsdiq edən istinadlar və digər məlumatlar əks olunur.

Əməliyyatların təhlili zamanı müəyyən dövr ərzində müəyyən bir hesab, yaxud bir neçə hesab üzrə aparılmış *əməliyyatların həcmi, dəyəri və ya sürətində* qeyri-adi qanunauyğunluqlar (kənarlaşmalar) müəyyən olunur.

Əməliyyatların təhlilində **əməliyyatların həcmi üzrə** aşağıdakı **göstəricilər** müəyyən olunur:

1. Zaman üzrə **hesab balansının (qalığının) məbləği** ölçülür:
   - orta maksimum və minimumlar,
   - sakitlik və aktivlik dövrləri müəyyən olunur.
2. Zaman üzrə çoxsaylı **əməliyyat növlərinin məbləği** ölçülür:
   - ümumi mədaxillər üzrə nümunələr (qanunauyğunluqlar),
   - ümumi məxaricler üzrə nümunələr (qanunauyğunluqlar),
   - pul köçürmələri üzrə nümunələr (qanunauyğunluqlar) müəyyən olunur.

Əməliyyatların həcmi üzrə hesab balansı (qalığı) göstəricilərinə nümunə:

Aylar	Aşağı hesab balansı	Yuxarı hesab balansı
Yanvar	$339.84	$2,348.63
Fevral	$219.27	$2,253.83
Mart	$230.78	$52,238.36
Aprel	$310.05	$2,315.77

May	$351.99	$2,378.30
İyun	$275.82	$77,280.94
İyul	$481.46	$2,591.39
Avqust	$460.70	$2,463.09
Sentyabr	$467.55	$467.55
Oktyabr	$467.55	$267.55
Noyabr	$267.55	$67.55
Dekabr	$67.55	$7.55

Əməliyyatların həcmi üzrə əməliyyat növləri göstəricilərinə nümunə:

Tarix	Əməliyyatın növü	Məbləğ
03/03/2020	Nağd mədaxil	$2,650.00
09/03/2020	Nağd mədaxil	$4,000.00
18/03/2020	Nağd mədaxil	$6,500.00
26/03/2020	Nağd mədaxil	$2,000.00
29/03/2020	Nağd mədaxil	$9,200.00
31/03/2020	Köçürmə (məxaric)	$25,000.00
02/04/2020	Nağd mədaxil	$5,500.00
08/04/2020	Nağd mədaxil	$6,750.00
12/04/2020	Nağd mədaxil	$2,400.00
14/04/2020	Nağd mədaxil	$1,500.00
19/04/2020	Nağd mədaxil	$3,200.00
22/04/2020	Nağd mədaxil	$2,500.00
28/04/2020	Nağd mədaxil	$3,000.00
29/04/2020	Köçürmə (məxaric)	$25,000.00

Mart ayı üzrə nağd mədaxilin həcmi: ***$24350***
Aprel ayı üzrə nağd mədaxilin həcmi: ***$24850***

Əməliyyatların təhlilində **əməliyyatların dəyəri üzrə** aşağıdakı **göstəricilər** müəyyən olunur.

1. **Hesablar** üzrə aşağıdakı göstəricilər:
   - hesab balansının ümumi məbləği,
   - əlaqəli hesab balanslarının ümumi məbləğləri.
2. **Əməliyyat** üçün aşağıdakı göstəricilər:
   - konkret (ayrıca) bir əməliyyatın məbləği;
   - əlaqəli əməliyyatların məbləğləri;
   - hər bir əlaqəli hesab üzrə əməliyyatların məbləği.

Əməliyyatların dəyəri üzrə hesab məbləğləri göstəricilərinə nümunə:

Aylar	Hesab balansı
Yanvar	$2,348.63
Fevral	$2,253.83
Mart	$2,238.36
Aprel	$2,315.77
May	$2,378.30
İyun	$2,280.94
İyul	$2,591.39
Avqust	$2,463.09
Sentyabr	$120,467.55
Oktyabr	$142,793.55
Noyabr	$200,107.55
Dekabr	$250,635.55

Əməliyyatların dəyəri üzrə əməliyyat məbləğləri göstəricilərinə nümunə:

Tarix	Əməliyyatın təsviri	Məbləğ	Balans
01/03/2020	Elektron mədaxil	$1,757.23	$2,155.65
09/03/2020	Bank çeki (məxaric)	($731.66)	$1,423.99
18/03/2020	Bank çeki (məxaric)	($235.41)	$1,188.58
26/03/2020	Nağd məxaric	($200.00)	$988.58
29/03/2020	Bank çeki (məxaric)	($92.00)	$896.58
31/03/2020	Nağd məxaric	($200.00)	$696.58
31/03/2020	Əmanət hesabına köçürmə	($400.00)	$296.58
02/04/2020	Elektron mədaxil	$1,757.23	$2,053.81
08/04/2020	Bank çeki (məxaric)	($731.66)	$1,322.15
12/04/2020	Bank çeki (məxaric)	($212.00)	$1,110.15
14/04/2020	Nağd məxaric	($200.00)	$910.15
19/04/2020	Bank çeki (məxaric)	($92.00)	$818.15
22/04/2020	Əmanət hesabına köçürmə	($250.00)	$568.15
28/04/2020	Mədaxil olan köçürmə	$15,000.00	$15,568.15
01/05/2020	Elektron mədaxil	$1,757.23	$17,325.38
10/05/2020	Bank çeki (məxaric)	($731.66)	$16,593.72

Əməliyyatların təhlilində **əməliyyatların sürəti üzrə** aşağıdakı **göstəricilər** müəyyən olunur.

1. **Hesaba** vəsait axınının sürətini ölçən göstəricilər:
   - Mədaxillər,
   - Köçürmələr.
2. **Hesabdan** vəsait axınının sürətini ölçən göstəricilər:
   - Məxariclər;
   - Köçürmələr.

Əməliyyatların sürəti üzrə hesab ilə vəsaitlərin axını göstəricilərinə nümunə:

Tarix	Əməliyyatın təsviri	Məbləğ	Balans
01/03/2020	Nağd mədaxil	$8,372.86	$8,408.43
02/03/2020	Məxaric olan köçürmə	($2,756.21)	$5,652.22
03/03/2020	Məxaric olan köçürmə	($3,876.84)	$1,775.38
03/03/2020	Məxaric olan köçürmə	($1,575.50)	$199.88
04/03/2020	Nağd mədaxil	$9,036.83	$9,236.71
04/03/2020	Məxaric olan köçürmə	($1,850.47)	$7,386.24
05/03/2020	Məxaric olan köçürmə	($1,686.73)	$5,699.51
06/03/2020	Məxaric olan köçürmə	($1,287.63)	$4,411.88
08/03/2020	Məxaric olan köçürmə	($2,078.69)	$2,333.19
12/03/2020	Məxaric olan köçürmə	($2,091.58)	$241.61
14/03/2020	Nağd mədaxil	$9,500.00	$9,741.61
19/03/2020	Məxaric olan köçürmə	($3,613.90)	$6,127.71
22/03/2020	Məxaric olan köçürmə	($1,837.25)	$4,290.46
22/03/2020	Məxaric olan köçürmə	($1,579.35)	$2,711.11
23/03/2020	Məxaric olan köçürmə	($1,287.39)	$1,423.72
24/03/2020	Məxaric olan köçürmə	($1,200.00)	$223.72
24/03/2020	Nağd mədaxil	$5,910.23	$6,133.95
24/03/2020	Məxaric olan köçürmə	($2,765.82)	$3,368.13
24/03/2020	Məxaric olan köçürmə	($1,883.56)	$1,484.57
26/03/2020	Məxaric olan köçürmə	($1,387.92)	$96.65

Cəmi nağd mədaxillər: ***$32,819.92***
Cəmi köçürmələr: ***$32,758.64***

PL/TM-in müəyyən edilməsi üçün əməliyyat təhlilindən aşağıdakı göstəricilərin təyin edilməsində istifadə olunur:

- hesab profilindən kənarlaşmalar.
- hesaba daxil olan və ondan xaric olan vəsaitlərin modelləri.
- əlaqəli hesablara daxil olan və ondan xaric olan vəsaitlərin modelləri.

Məlumatların təhlili mərhələsində (4-cü mərhələ) müştərinin bəyan edilməmiş gəlirlərinin müəyyən edilməsinin (sübut edilməsinin) dolayı metodlarına dair nümunə

PL/TM hallarının təhlili çərçivəsində şəxsin *bəyan edilməmiş gəlirlərinin* müəyyən edilməsinin aşağıdakı *dolayı təhlil metodları* mövcuddur:

1. Xalis dəyərin (aktivlərin) təhlili.
2. Xərclərin təhlili.
3. Bank depozitlərinin təhlili.

Xalis dəyərin təhlili metodu

Fərdin xalis sərvəti (kapitalı) onun sahib olduğu ilə borclu olduğu sərvətinin həcmi arasındakı fərqdir. Bu metoddan şübhəli şəxsin zəngin sərvət topladığı və daşınmaz əmlak, avtomobil, bank və broker hesabları kimi uzunmüddətli aktivlər əldə etdiyi və eləcə də şəxsi xərclər həyata keçirdiyi halda istifadə olunur. Xalis dəyərin təhlili metodu müəyyən dövr ərzində şəxsin aktivləri və xərclərinin onun məlum gəlir mənbələrini üstələdiyini göstərməklə onun qeyri-qanuni gəlirinin olduğunu sübut etmək üçün istifadə olunur. Bu metod şəxsin qeyri-qanuni gəlirinin qiymətləndirilməsi üçün uyğun olmaqla, şübhəli şəxsin mühasibat sənədlərinin tələblərə uyğun olmadığı, səhv olduğu, yaxud ümumiyyətlə olmadığı hallarda tətbiq edilir. İstənilən digər dolayı sübut metodu kimi aktivlərin xalis dəyərinin təhlili də obyektin *maliyyə profilinin* müəyyən edilməsindən sonra aparılır. Maliyyə profili şübhəli şəxsin bütün mühüm akitvləri (nağd pullar da daxil olmaqla) aşkar edildikdən sonra hazırlanır.

Xalis dəyərin təhlili metodunun sübutu asandır: əgər şübhəli şəxsin verilmiş ilin əvvəli ilə müqayisədə ilin sonundakı sərvətinin həcmi böyükdürsə və bu artım şəxsin vəsaitlərinin məlum mənbələri (bəyan edilmiş gəlir, hədiyyələr, borclar, vərəsə və s.) ilə əlaqəli deyilsə, belə artım ehtimal ki, qeyri-qanuni mənbələrdən olan gəlir ilə bağlı olacaq və şübhəli şəxsin məlum olmayan mənbələrdən gəlir əldə etməsini göstərəcəkdir. Qeyd olunanları aşağıdakı düstur ilə ifadə etmək olar:

Aktivlər – Öhdəliklər = Xalis dəyər
Cari xalis dəyər – Əvvəlki ilin xalis dəyəri = Xalis dəyərin artımı
Xalis dəyərin artımı + Məlum xərclər = Ümumi xalis dəyər artımı
Ümumi xalis dəyər artımı – Məlum mənbələrdən olan vəsaitlər = Naməlum mənbələrdən olan vəsaitlər.

Xalis dəyər metodu ilə vəsaitlərin mənbəyi aşağıdakı kimi hesablanır:
= baza ilinin sonunda, yaxud başlanğıc nöqtəsində aktivlərin xalis dəyərini müəyyən edin;
- xalis dəyərin artımını əldə etmək üçün növbəti ilin sonunda xalis dəyəri çıxın;
+ fərdi xərcləri əlavə edin;
- məlum mənbələrdən olan vəsaitləri çıxın;
= naməlum mənbələrdən olan vəsaitləri müəyyən edin.

Xərclərin təhlili metodu

Sübut metodu kimi *xərclərin təhlili metodu* (həmçinin vəsaitlərin mənbəyi və istifadəsi də adlanır) nəzəri olaraq xalis dəyərin təhlili metoduna analojidir. O, xalis dəyər metodunda olan uzunmüddətli aktivlərin və ya malların əldə olunmasından fərqli olaraq, şübhəli şəxsin istehlak malları üzrə fərdi xərclərini izləyir. Bu, şübhəli (araşdırılan) şəxsin məlum

xərclərinin müvafiq dövr üçün vəsaitlərin mənbəyi ilə müqayisə edilməsi yolu ilə əldə olunur. Məlum vəsait mənbələrini üstələyən xərcləri yalnız naməlum mənbələrdən əldə olunmuş vəsaitlər ilə izah etmək olar.

Xərclərin təhlili nisbətən sadə düsturdan istifadə etməklə hesablanır:

Məlum xərclər – Məlum gəlir mənbələri = Naməlum mənbələrdən olan vəsaitlər

Xərclər – bank hesablarına qoyulmuş depozitlər, aktivlərin alışı üçün istifadə olunmuş nağd pullar, borcun ödənilməsi üçün istifadə olunmuş nağd pullar və ya istənilən şəxsi xərclər də daxil olmaqla pul vəsaitlərinin hər hansı şəkildə istifadə olunmasıdır. Vəsaitlərin məlum mənbələrinə nağd pullar, borclar, hədiyyələr, vərəsə və s. də daxil olmaqla şübhəliyə aid bütün mənbələr daxil edilməlidir. Nəticə etibarilə, şübhəlinin nağd xərcləri ilə onun məlum mənbələrdən olan vəsaitlərinin fərqi naməlum mənbələrdən olan vəsaitləri göstərir.

Bank depozitlərinin təhlili metodu

Sübut metodu kimi *bank depozitlərinin təhlili* üsulundan istifadə şübhəlinin məlum və naməlum mənbədən olan vəsaitlərinin maliyyə institutunda yerləşdirildiyi (məsələn, cari və əmanət hesabları, broker hesabları və digər növ hesablarda) halda faydalıdır. Bu metoddan aktivlərin və öhdəliklərin (passivlərin) kifayət qədər sabit olduğu və şübhəli şəxsin həddən artıq çox xərcləmələr etdiyinə dair hər hansı əlamətin olmadığı halda istifadə olunur. Bank depozitlərinin təhlili metodundan məlum olmayan hesabları aşkar etmək və maliyyə institutları vasitəsilə vəsaitlərin hərəkətini izləmək üçün istifadə oluna bilər.

Müvafiq metod ilə təhlil zamanı aşağıdakı düsturdan istifadə olunur:

Bütün hesablar üzrə ümumi depozitlər – köçürmələr və təkrar depozitlər = bütün hesablar üzrə xalis depozitlər *Bütün hesablar üzrə xalis depozitlər – nağd pul xərcləri = bütün mənbələrdən olan ümumi daxilolmalar* *Bütün mənbələrdən olan ümumi daxilolmalar – məlum mənbələrdən olan vəsaitlər = naməlum mənbələrdən olan vəsaitlər*

Bank depozitlərinin təhlili metodu üzrə hesablamada:

1) bütün maliyyə hesabları üzrə depozitlər nəzərə alınır;
2) ayrı-ayrı depozitlərdən əldə edilmiş nağd vəsaitlər depozitlərin ümümi məbləğinə daxil edilmir;
3) nağd vəsait üçün verilmiş və nağdlaşdırılmış çeklər şübhəli şəxsin əlindəki nağd vəsait kimi nəzərə alınır;
4) nağd vəsait xərcləmələrinə bank hesabları vasitəsilə əldə edilmiş mallar daxil edilmir.

Mərhələ 5. Təhlilin nəticələri üzrə yazılı hesabatın hazırlanması və məlumatın MMO-ya ötürülməsi (nəticələrin təqdim edilməsi)

İstənilən təhlil və qiymətləndirmə onun son istifadəçilərinə lazımi şəkildə və vaxtında çatdırıldığı halda faydalı hesab olunur. Bu baxımdan, nəticələrin necə təqdim edilməsi də çox əhəmiyyətlidir. Hesabat düzgün hazırlanmasa və təqdim edilməsə, görülmüş işlər diqqətdən kənarda qala bilər və düzgün qəbul edilməyə bilər.

Araşdırmanın əvvəlki mərhələlərində işi nə dərəcədə uğurla icra etməyimizdən asılı olmayaraq işin nəticələrinin vaxtında təqdim edilməsi həddən artıq vacibdir. Həmçinin avtomatlaşdırılmış filter funksiyalarından və qiymətləndirmədən istifadə etmək üçün ötürülən hesabat strukturlaşmış formada olmalıdır.

Məlumatların ötürülməsi prosesi müxtəlif formalarda ola bilər. Belə formaların əsas nümunəsi strukturlaşdırılmış formal hesabatlar (təsdiqləyici sənədlərlə birlikdə) hesab olunur.

Məlumatın MMO-ya ötürülmə proseduru bankda yazılı formada olmalıdır. Hesabatların elektron nüsxələrinin xüsusi təhlükəsiz kanal vasitəsilə ötürülməsi tövsiyə olunur. Banklar tərəfindən MMO-ya təqdim olunmuş hesabatların protokollaşdırılmasının və ayrıca uçotunun aparılması faydalıdır.

ŞƏM-i qəbul etmiş MMO tərəfindən görülən tədbirlərin xülasəsi

Monitorinq iştirakçılarından qəbul edilmiş ŞƏM hesabatları sözügedən şəxslər tərəfindən həyata keçirilmiş fəaliyyətlərin şübhəli olmasını, hər hansı şübhəli fəaliyyətlə və ya aparılan araşdırmalar ilə əlaqəsinin olmasını müəyyən etmək üçün təhlil olunur. Təhlil prosesində MMO daxili (dövlət və qeyri-dövlət məlumat bazaları) və xarici mənbələrdən (xarici MMO-lar) əlavə məlumatlar toplayır. Əlavə məlumatların təhlili nəticəsində MMO-nun müvafiq fəaliyyət (əməliyyat) ilə ciddi pozuntular arasındakı əlaqəni təsdiq edəcək kifayət qədər məlumat (faktlar) əldə etdiyi halda, belə məlumat araşdırılması üçün aidiyyəti HMO-ya ötürüləcəkdir. Əks halda, müvafiq məlumatlar gələcək əlaqəli təhlillərdə istifadə olunması üçün MMO-nun məlumat bazasında saxlanılacaqdır.

Müvafiq şübhəli halların aşkar edilməsi üçün MMO-nun malik olduğu əsas informasiya mənbələrindən birini ŞƏM-lər təşkil edir. ŞƏM şübhəli cinayət fəaliyyətinin əməliyyat, xidmət yaxud əməliyyatlar və/və ya xidmətlər seriyası vasitəsilə baş verdiyini göstərə bilər. MMO tərəfindən qəbul edilən hesabatlar cinayət halını göstərə bilən fəaliyyətlər və ya qanunauyğunluqların müəyyən edilməsi məqsədilə təhlil olunur. Təhlil gedişində PL/TMM qanunvericiliyinə uyğun olaraq monitorinq iştirakçılarından əldə edilmiş əlavə məlumatlar, HMO-dan və digər dövlət qurumlarından, beynəlxalq tərəfdaşladan və eləcə də açıq məlumat mənbələri də daxil olmaqla müxtəlif resurslardan istifadə olunur. ŞƏM-də verimiş şübhəli halların araşdırılmasının davam etdirilib-etdirilməməsini müəyyən etmək məqsədilə monitorinq iştirakçılarından əlavə məlumat tələb olunur. Belə məlumatlar müəyyən olunmuş şübhəli halın real cinayət fəaliyyətinə aid olub-olmamasının müəyyən edilməsi üçün çox əhəmiyyətlidir. Cinayət əlamətlərinin aşkar edildiyi halda, iş hüquq mühafizə fəaliyyəti ilə məşğul olan istintaq orqanlarına, aktivlərin qaytarılması, milli təhlükəsizlik və vergi orqanlarına ötürülə bilər. İş müəyyən hallarda nəzarət və ya tənzimləyici orqanlara da ötürülə bilər.

Təhlilin və məlumatların ötürülməsinin prioritetləşdirilməsi

Məlumatların araşdırılması və təhlilində prioritetlik risk dərəcəsinə görə müəyyən olunur. Başqa sözlə, məlumatların təhlilində və MMO-ya ötürülməsində prioritetlik daha yüksək risk doğuran, eləcə də böyük ictimai ziyan vuran hallara, həmçinin bankın risk əsaslı xəbərdarlıq sisteminə əsasən müəyyən olunur. Bu baxımdan, məlumatların məzmununa görə nümunə olaraq təhlilin prioritetliyi aşağıdakı ardıcıllıqla müəyyən oluna bilər:

- terrorçuluğun maliyyələşdirilməsinə (TM) dair şübhə olan və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və

tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən siyahısı təsdiq edilmiş barələrində sanksiyalar tətbiq edilməli olan şəxslərlə aparılan əməliyyatlar barədə məlumatlar;
- pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına dair şübhə olan və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar barədə məlumatlar;
- pul vəsaitlərinin və ya digər əmlakın cinayət nəticəsində əldə olunduğuna şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar barədə məlumatlar;
- yüksək riskli müştərilərin əməliyyatları (yüksək sərvətə malik şəxslər, siyasi xadimlərin əməliyyatları, sanksiya siyahısında qeyd olunmuş şəxslər);
- yüksək məbləğdə aparılan əməliyyatlar;
- yüksək riskli məhsullarla, yüksək riskli ərazilərlə aparılan əməliyyatlar və digər əməliyyatlar barədə məlumatlar.

Lakin məlumatların araşdırılması və təhlilinin prioritet ardıcıllığı hər bir konkret hal üzrə dəyişdirilə bilər. Bundan əlavə, TM şübhəsi olan və ya digər hər hansı yüksək riskli hallarda PL/TMM üzrə Qanunvericiliyə uyğun olaraq bank tərəfindən dərhal əməliyyatın dayandırılması və hesabdakı vəsaitin dondurulması prosedurları tətbiq olunmalı və bu barədə MMO-ya yazılı və eyni zamanda şifahi məlumat verilməlidir.

Mərhələ 6. Təqdim edilmiş məlumat müqabilində MMO tərəfindən geriyə məlumatlandırma ("feedback") və tələblər

Bu mərhələ təhlil tsiklinin "son" mərhələsi və eləcə də başlanğıc fazasıdır. Son istifadəçilər məhz bu mərhələdə analitik materiallarda əks olunmuş məzmuna və əsas məsələlərə münasibət bildirir və eyni zamanda belə informasiyalar üzrə ümumi prioritetlər və daha konkret tələblər barədə məlumat verirlər. Bu baxımdan, hazırkı mərhələ mövcud işin istiqamətinin müəyyən edilməsi və dəqiqləşdirilməsinə yardım etmək üçün çox əhəmiyyətli mərhələdir. Son istifadəçilərin prioritetlərindən və tələblərindən asılı olaraq təhlil tsikli yenidən başlaya bilər. Lakin bu, analitik prioritetlərin və analitik fəaliyyətin istiqamətlərinin daim yenilənməsi və nəzərdən keçirilməsi olmaqla qeyri-xətti prosesdir. Əvvəlki mərhələyə qayıtmanı və dəyişikliklər edilməsinin məqsədəuyğunluğunu dərk etdikdə, belə əks əlaqə prosesin istənilən nöqtəsində baş verə bilər. Məsələn, təhlil prosesində analitikin əldə etdiyi informasiyanın kifayət etməməsi aşkar edilə və məlumatların toplanması və planlaşdırma mərhələsinə qayıtma zəruri ola bilər.

Təqdim edilmiş ŞƏM müqabilində MMO tərəfindən bankların aşağıdakı mümkün istiqamətlərdə məlumatlandırılması təmin edilə bilər:

- *Qəbul edilmiş ŞƏM hesabatlarının keyfiyyəti.* Qəbul edilmiş ŞƏM-lərin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi çərçivəsində MMO-nun əhəmiyyətli təfərrüatların buraxılması, şübhəli fəaliyyətin adekvat təsviri və s. baxımından geriyə məlumat təqdim etməsi faydalıdır. Bu, monitorinq iştirakçısı olan banklara keyfiyyətli ŞƏM anlayışının daha yaxşı başa düşülməsində və gələcək şübhəli fəaliyyət barədə hesabat təqdim etməsində yardım edəcəkdir. Adətən, yüksək keyfiyyəti ŞƏM müvafiq hesabatların daha yaxşı başa düşülməsinə, təhlilin sürətləndirilməsinə və şübhəli hala qarşı zəruri tədbirlərin həyata keçirilməsinə imkan verir.
- *Uğurlu istintaqa səbəb olmuş ŞƏM-lər.* Təqdim olunmuş ŞƏM-in cinayət əməlinin aşkar edilməsi və qarşısının alınmasına (şəxslərin məhkum edilməsinə) gətirib çıxardığını bilmək həmişə faydalıdır. Məlum olduğu kimi, istənilən istintaq barədə məlumat açıqlana bilməz, çünki bu növ məlumatlar yalnız məhkəmə hökmündən sonra açıqlana bilər. Lakin uğurlu istintaq barədə məlumatların olmamasını ŞƏM-in mütləq faydalılıq indikatoru kimi nəzərdən keçirmək olmaz.

- *Trendlər, tipologiyalar və indikatorlar.* MMO müxtəlif monitorinq iştirakçılarından əldə etdiyi müxtəlif ŞƏM-də müşahidə olunan ümumi indikatorlar, cari tendensiyalar və tipologiyalar barədə həmin subyektlərə məlumat təqdim edə bilər. Bu, mümkün ki, monitorinq iştirakçısında aşkar oluna bilinməyən cari fəaliyyət barədə məlumatlılığı yüksəltməyə və monitorinq iştirakçısını onda həyata keçirilən əməliyyatların monitorinqi zamanı diqqətli olmağa yönəlmişdir.

III. ŞƏM HESABATININ ÜMUMİ STRUKTURU VƏ MƏZMUNU

Adətən, ŞƏM hesabatının strukturu ümumi şəkildə aşağıdakı hissələrdən ibarət olur:

1. ŞƏM-i təqdim edən bankın eyniləşdirmə məlumatları.
2. Əməliyyatı həyata keçirən fiziki şəxsin eyniləşdirmə məlumatları.
3. Adından əməliyyat həyata keçirilən şəxsin (fiziki və ya hüquqi) eyniləşdirmə məlumatları və əlaqəsi.
4. Əməliyyat məlumatları (tarix, məbləğ, valyuta, şübhəli hallar və s.).
5. Hesab məlumatları (nömrəsi, tarixi, statusu, açılma və bağlanma tarixləri, sahibi).
6. Hesabatın məzmunu (faktlar və şübhəlilik əsasları).

ŞƏM hesabatının əsas hissəsi onun məzmunudur. Bu baxımdan, əməliyyatların monitorinqi proqramı çərçivəsində hazırlanması zəruri olan protokollardan biri kimi ŞƏM hesabatının məzmununun hazırlanması və sənədləşdirilməsi barədə aşağıda ətraflı məlumat təqdim olunur. Bank tərəfindən MMO-ya təqdim ediləcək ŞƏM hesabatının nümunəvi forması *əlavə 4-də* verilmişdir.

3.1. ŞƏM hesabatının məzmununun hazırlanması və sənədləşdirilməsi

Monitorinq iştirakçıları ŞƏM-də təqdim edilmiş informasiyanın tamlığı və dəqiqliyinin (düzgünlüyünün) təmin olunması üçün məsuliyyət daşıyırlar. Belə ki, hər bir monitorinq iştirakçısının daxili siyasət və prosedurları ŞƏM-in müəyyən edilməsi, qiymətləndirilməsi və MMO-ya təqdim edilməsi üzrə ətraflı informasiyanı özündə əks etdirməlidir. ŞƏM-in təqdim edilməsi öhdəliyinə malik subyektlər şübhəli əməliyyatları ilkin mərhələdə aşkar edən avtomatlaşdırılmış sistemə malik olmaqla yanaşı, belə əməliyyatlar barədə məlumatların MMO-ya təqdim edilib-edilməməsi barədə qiymətləndirmə aparan və qərar qəbul edən peşəkar heyətə də sahib olmalıdır. Bu funksiyaların icrası üçün əməkdaşların zəruri təlimlərdə davamlı iştirakının təmin edilməsi monitorinq iştirakçısının uyğunluq proqramı üzrə müəyyən edilmiş öhdəliklərindən biri hesab olunur.

Hər hansı bir ŞƏM şübhənin tam mənzərəsini, eləcə də belə şübhə üçün əsas olaraq çıxış edən obyektiv fakt və şərtlər barədə tam məlumatı əhatə etməlidir.
İdeal bir ŞƏM hesabatı iştirak edən fiziki/hüquqi şəxslər və şübhəli əməliyyat haqqında mümkün qədər ətraflı məlumatı özündə ehtiva etməlidir. Aidiyyəti və yenilənmiş sənədlər şübhə üçün arqumentləri dəstəkləmək məqsədilə əlavə edilməlidir.

ŞƏM hesabatının göndərilməsi üçün *minimum texniki tələblər* kimi aşağıdakıların təmin edilməsi tövsiyə olunur:

- *Eyniləşdirmə məlumatları* (fiziki şəxslər üçün tam adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, FİN-i, təvəllüd tarixi, milliyyəti, ünvanı, telefon nömrəsi, məşğuliyyət məlumatları və s.; hüquqi şəxslər üçün tam adı, VÖEN-i, təşkilati-hüquqi forması, təsis tarixi və yeri, benefisiar mülkiyyətçiləri, rəhbər şəxsləri, nümayəndələri və səhmdarları barədə məlumatlar – bu növ məlumatların yazılış formasının standartlaşdırılması tövsiyə olunur).
- *Əməliyyatın təfərrüatları* (əməliyyatın növü, məbləği, tarixi, göndərən və alan tərəf, göndərən və alan bank, əməliyyatın başlandığı və başa çatdığı ölkə, müxbir bank və s.).
- *Şübhə üçün əsaslar da daxil olmaqla şübhəli əməliyyatın təsviri.* Bu hissədə şəxsin vəsaitlərinin mənbəyini təsdiq edən məlumatlar (yaxud mülahizələr), şübhəliliyi təsdiq edən əsas faktlar, şübhəli və eləcə də əlaqəli şəxslərin detalları, nəticə barədə mülahizələr və s. əks olunur. Zərurət olduqda, əməliyyatların sxemi də əlavə oluna bilər.

- *Hesaba / əməliyyatlara münasibətdə görülmüş və ya həyata keçiriləcək tədbirlər* (monitorinq olunan hesab, hesabın bağlanması qərarı, əməliyyatların icra olunmaması, dayandırılması və nəzərdə tutulmuş hansısa müddətdə işgüzar münasibətlərə xitam verilməsi qərarı).
- *Ən son yenilənmiş müştəri profili barədə məlumatların (hər bir subyekt üzrə hesab açılması üzrə sənədlər və s.) dəstəkləyici/təsdiqedici sənəd kimi əlavə olunması.*

Banklar tərəfindən ŞƏM təqdim olunarkən onun ətraflı, düzgün və asan başa düşülən təsviri çox əhəmiyyətlidir. Bu məqsədlə, ŞƏM hesabatlarının strukturu ən ümumi formada 3 hissədən ibarət olmalıdır: giriş (subyektlər barədə informasiya), əsas hissə (əsas məzmun) və nəticə (şübhəlilik əsasları). Bu hissələr şübhəli halın (fəaliyyətin) müəyyən edilməsinə imkan verən ***6 əsas sual*** *(kim, nə, nə vaxt, harada, necə və nə üçün sualları)* və onlara verilmiş cavab üzrə hazırlanmalıdır. Daha aydın olması üçün hər bir sual aşağıda ətraflı nəzərdən keçirilir. Burada ŞƏM-in məzmun hissəsinə hansı məlumatların əlavə olunması üzrə tövsiyələr müəyyən olunmuşdur. Daha doğrusu, keyfiyyətli ŞƏM, o cümlədən onun əsas hissəsi olan şübhəlilik əsasları özündə aşağıdakı məsələləri (sualları) nəzərə almalıdır. Bunları həm də ŞƏM məlumatlarının MMO-ya ötürülməsi üçün əsas meyarlar da hesab etmək olar.

Kim: *şübhəli əməliyyatlara (hallara) kim(lər) cəlb olunub?*

ŞƏM-də həyata keçirilmiş əməliyyatın tərəflərinin kimlər (fiziki və hüquqi şəxslər) olması, yəni əsas iştirakçı(lar) müəyyən edilməlidir.

Bu sualın cavablandırılması üçün ŞƏM hesabatında aşağıdakı məlumatlar əks olunur:
- Əsas subyekt(lər)in məşğulluq məlumatları: peşəsi, fəaliyyət növü, vəzifəsi, işə götürənin adı və ünvanı;
- Əsas subyekt(lər)in əlavə eyniləşdirmə məlumatları;
- Əsas subyekt(lər)in əlavə ünvanları, məsələn, poçt qutusu;
- Əməliyyatlara cəlb olunmuş hesabların sahibləri, imza hüququ olan şəxslər və nümayəndələrin siyahısı, onların eyniləşdirmə məlumatları;
- Mümkün olduğu qədər əməliyyatlarda iştirak edən hüquqi şəxslərin sahibləri, benefisiar mülkiyyətçiləri, imza hüquqlu şəxsləri, rəhbər şəxsləri, əsas səhmdarlarının siyahısı və eyniləşdirmə məlumatları;
- Təsvir olunmuş hər bir maliyyə əməliyyatında adı keçən hər bir fiziki və hüquqi şəxsin rolu barədə aydın məlumat (vəsaitləri göndərən və alan şəxsin dəqiq müəyyən edilməsi baxımından);
- İşdə adı keçən çoxsaylı subyektlər (fiziki və hüquqi şəxslər) arasındakı mövcud əlaqələr və onun izahı, eləcə də əməliyyatlar vasitəsilə əlaqələri (əgər məlumdursa).

Nümunə: "X" şəxsi "A" şirkətində nəzarətçi vəzifəsində çalışan 45 yaşlı bir iş adamıdır. Ayda 900 AZN aylıq əmək haqqı və eyni zamanda daşınmaz əmlakın kirayəsi haqqından gəlir olduğunu iddia etdiyi ayda təxminən 600 AZN alır.

Nə: *nə baş verir?*

Bu hissədə nəyin, hansı fəaliyyətin, hansı halın (cinayət fəaliyyətinin) baş verdiyinin təfərrüatları açıqlanır. Subyektin fəaliyyət obrazının necə olması, subyektin şübhəli fəaliyyətinin təbiəti və belə fəaliyyət zamanı hansı maliyyə alətlərindən və mexanizmlərindən istifadə etdiyi açıqlanır. Məsələn, əməliyyatlar özündə aşağıdakı məlumatları əks etdirə bilər:

- bank sənədləri;
- debet və ya kredit kartları;
- "şel" şirkətlər;
- strukturlaşdırma;
- elektron köçürmələr və s.

Bir sözlə, ŞƏM-ə daxil edilmiş hər hansı əməliyyata əlavə olaraq, məzmun hissəsində əməliyyatlar üzrə hansı fəaliyyət növünün baş verdiyi və ya buna cəhd edildiyi, eləcə də hesabatın əməliyyatlar bölməsində daxil edilməmiş istənilən digər əməliyyat göstərilməlidir. Bundan əlavə, ŞƏM üzrə təhlil hesabatının məzmun hissəsinə müştərinin davranışı (məsələn, o, əməkdaşlıq etməkdən imtina edirsə), müştərilərlə iş üzrə menecerin, kassirin və ya şübhənin müəyyən edilməsi prosesində iştirak etmiş istənilən vəzifəli şəxsin hərəkətləri barədə informasiya daxil edilməlidir.

ŞƏM hesabatına (təhlil hesabatına) həmçinin əməliyyatların necə həyata keçirildiyi barədə ətraflı məlumat daxil edilməlidir. Subyekt tərəfindən "ATM", depozit qutusu, internet bankçılıqdan istifadə olunub-olunmamasını və ya əməliyyatları şəxsən özü apardığını qeyd edin. Həmçinin əməliyyata aid olan hesabları, cəlb olunmuş digər maliyyə institutlarının məlumatlarını (hesabları, ünvanları və s.) verin.

Nə vaxt: *nə vaxt baş verib? (zaman çərçivəsi)*

Bu suala cavabda şübhəli halın, əməliyyatın baş verdiyi və ya buna cəhdin edildiyi tarix və ya dövr qeyd olunur (xronoloji qaydada olması arzuolunandır). Hadisə bir neçə hal üzrə baş verərsə, hesabatda bütün tarixləri və bu tarixlər ilə əlaqəli əməliyyatların məbləğlərini göstərin. Burada əməliyyatın baş tutmama səbəbi də qeyd olunmalıdır.

Harada: *harada baş verib? (coğrafi çərçivə)*

Burada şübhəli halın baş verdiyi məkanı (ünvan, maliyyə institutunun yerləşdiyi yer, filial və s.) qeyd edin. Zərurət olduqda, hesabatda bir sıra məkan məlumatlarını əlavə edə bilərsiniz. Əgər şübhəlilik əsasında məkan önəmli rol oynayırsa, o halda səbəbini qeyd edin.

Necə: əməliyyatlar (fəaliyyət) necə baş verib? (əməliyyat metodları) Şəxslər şübhəli əməliyyatlara necə cəlb olunub? Hansı indikatorlar (şübhəlilik əlamətləri) müşahidə olunur? Hansı PL/TM metodlarından istifadə olunub?

Əməliyyatın (fəaliyyətin) şəxsi görüş zamanı, yaxud birbaşa əlaqə qurmadan (non face-to-face: ATM, elektron vasitələr və ya digər vasitələrlə) həyata keçirildiyini göstərin.

Nə üçün: *əməliyyat (fəaliyyət) nə üçün şübhəlidir? (motiv)*

Bu fəaliyyətin (əməliyyatın, əməliyyata cəhdin) nə üçün şübhəli olduğunu (motivini) düşündüyünüzü bacardığınız qədər ətraflı izah edin. Müştərinin verilmiş fəaliyyətinin onun adi fəaliyyətindən və ya gözlənilən fəaliyyətindən (eynitipli müştərilərin davranışları əsasında) nə ilə fərqləndiyini göstərin. Aşkar olan ciddi pozuntu əlamətlərini (PL/TM, predikativ cinayətlər ehtimalı), yaxud müşahidə etdiyiniz şübhəlilik indikatorlarını qeyd edin. Məsələn, müştəri dələduzluğa cəlb olunub, çünki alqı-satqı üçün saxta sənədlərdən istifadə edir.

Bundan əlavə, şübhə üçün əsaslar digər suallara da cavab verməlidir. Məsələn, cinayət yolu ilə əldə olunmuş gəlir (əmlak, aktiv) hansıdır və onun qiymətləndirilən dəyəri nə qədərdir?

Hər bir ŞƏM üçün tələb olunan məlumatlar hər hesabata görə dəyişə bilər, lakin bütün hallarda kifayət qədər məlumat verilməlidir.

ŞƏM hesabatları aydın və lakonik olmalı, ŞƏM-in təqdim olunması üçün şübhəlilik əsasları və hesabatın məzmunu səlis və sadə Azərbaycan dilində hazırlanmalıdır. Hesabatın məzmunu aydın, qısa və sadə olmalı, bütün zəruri informasiya əhatə olunmaqla, məntiqi formatda strukturlaşdırılmalı, şübhə üçün əsaslar xülasə olunmalı, hadisələr (faktlar) xronoloji ardıcıllıqda təqdim edilməlidir.

3.2. ŞƏM hesabatlarının hazırlanması üzrə banklarda müşahidə olunan ümumi zəifliklər

Təhlil hesabatında təqdim olunan informasiya HMO-nun cinayətkarlığa qarşı mübarizəsindəki uğurlarına birbaşa təsir edir. Bu səbəbdən, düzgün hesabatın hazırlanması üçün mümkün qədər ümumi məzmun səhvlərindən qaçmaq lazımdır. Təhlil hesabatlarında müşahidə olunan əsas səhvlər aşağıdakılardır:

- *İşin ("case") təsviri sahəsinin boş buraxılması, yaxud ətraflı məlumatın daxil edilməməsi:* işin təsviri bölməsinin tam doldurulmaması halında maliyyə kəşfiyyatını həyata keçirən MMO və HMO təhqiqatçıları təqdim olunmuş məlumatın nə üçün şübhəli olduğunu bilməyəcəklər. Bu səbəbdən, bütün halları ətraflı təsvir etməklə təhqiqatçılara yardım etməyə çalışın.
- *Əldə olan bütün mümkün məlumatı ətraflı təsvir edə bilməmə:* hesabatın təsvir sahəsində iş ("case") üzrə informasiyanı vermək əvəzinə, banklar çox vaxt təhqiqatçılara dəstəkləyici sənədlər (əlavə olunmuş məlumat) təqdim edirlər ki, bu da əlavə çətinliklər yaradır. Bankların özləri əlavə olunmuş sənədlərdəki bütün təfərrüatları çıxarmalı və hesabatın təsvir (məzmun) hissəsində ifadə etməlidir. Müvafiq sənədlər qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş müddət ərzində saxlanılmalıdır.
- *Yetərli olmayan məzmunun (təsvir) təqdim olunması:* bir çox maliyyə institutları təqdim etdikləri hesabatda şübhəlilik əsaslarını, şübhəli fəaliyyətin təbiətini adekvat şəkildə izah edə bilmirlər. Onlar çox vaxt əvvəllər hesabatda təqdim etdikləri məlumatları sadəcə təkrarlayırlar. Bunun əvəzinə, təhqiqatçılara maliyyə cinayətləri ilə mübarizədə daha böyük imkanlar yaratmaq üçün onlar hesabatda kim, nə, nə vaxt, harada və niyə sualları üzrə dəqiq, tam və əsas mahiyyətləri (nəyin qeyri-adi, normadan kənar və şübhəli olduğunu faktlarla göstərməklə) əhatə edən lakonik şəkildə təsvir məlumatlarını təqdim etməlidirlər.
- *Şübhəli hal ilə bağlı bütün əməliyyatların hesabata əlavə olunmaması.* Şübhə üşün ağlabatan əsasların olmasına imkan verən bütün əməliyyatlar hesabata əlavə olunmalıdır. Əməliyyatların sayının çox olduğu halda, hesabatın nömrəsinə olan istinadı saxlamaqla, ŞƏM ilə bağlı əlavə məlumat başlığı altında mesaj paneli ilə (yaxud ayrıca hesabat növü ilə) göndərilə bilər.

Bu baxımdan, aşağıda verilmiş iki nümunədə monitorinq subyekti tərəfindən MMO-ya təqdim edilmiş ŞƏM hesabatlarının məzmun (təsvir) fərqlərinə diqqət yetirin.

Nümunə 1:

Şübhəli "A" şəxsi müxtəlif üsullarla (filiallardakı "ATM"lər, gecə depozit qutuları və şəxsən) hesabına bir sıra əməliyyatla nağd mədaxillər etmişdir. Bütün əməliyyatlar müəyyən

olunmuş limit məbləğindən aşağı olmuşdur və buna görə biz hesab edirik ki, o, hesabatlılıqdan yayınmaq üçün əməliyyatları bilərəkdən bu formada aparmışdır.

Nümunə 2:

Biz şübhəli "A" şəxsinin onun barəsində səlahiyyətli orqana hesabat təqdim edilməsindən yayınması üçün özünün nağd mədaxil (depozit) əməliyyatlarını strukturlaşdırmasından şübhələnirik. Tərəfimizdən şəxsin müvafiq əməliyyatları üzrə A12579 nömrəli iş açılıb. Şübhəli "A" şəxsi bizim bankda 2018-ci ilin mart ayında "HRTYUOP" nömrəli hesab açmışdır. O, öz şəxsiyyətini və ünvanını (Bakı, Nəsimi ray., R.Behbudov küç. 120) təsdiqləmək üçün özünün şəxsiyyət vəsiqəsindən (AA1234567) istifadə etmişdir. O, "ABC" restoranında (VÖEN: 0123456789, ünvan: Bakı, R.Behbudov 123) 2017-ci ilin sentyabrından ofisiant işlədiyini qeyd etmişdir.

15.05.2018-ci il tarixində həmin şəxs müvafiq hesabına iki ayrı üsul ilə nağd mədaxil etmişdir: əsas filialda şəxsən özü 8.000 AZN və "ATM" vasitəsilə bankın 2 nömrəli filialına (Bakı, R.Behbudov 122) 11.500 AZN nağd mədaxil edib. Bu model aşağıdakı nağd mədaxil əməliyyatları ilə davam etdirilmişdir: 20.05.2018-də 19.300 AZN, 24.05.2018-də 19.800 AZN, 27.05.2018-də 19.600 və 31.05.2018-də 19.900 AZN. Bu əməliyyatların ofisiant işləyən bir şəxs üçün iri məbləğli depozitlər olması və hamısının hesabatlılıq limitindən bir qədər aşağı məbləğlərdə olması bizim məsul şəxsin diqqətini cəlb etmişdir.

Biz sözügedən şəxsin bütün hesablarının monitorinqini davam etdirəcək və bu işə aid bütün sənədləri saxlayacağıq.

Göründüyü kimi, Nümunə 1-dəki ŞƏM hesabatının məzmunu (təsviri) bankın şübhələrini əsaslandırmadan və subyektin yerləşdiyi yer (ünvan) barədə məlumatı təmin etmədən potensial problemin yalnız ümumi icmalını verir. Nümunə 2-dəki ŞƏM hesabatının məzmunu (təsviri) bankın narahatlığının dəqiq və aydın səbəblərini, subyekt barədə faydalı məlumatları və istinad nömrəsini təqdim edir ki, bu da səlahiyyətli qurumlara aydın təsəvvür və əlavə məlumat verir.

ƏLAVƏLƏR

Əlavə 1. Yüksək riskli müştərilər, məhsullar və coğrafi zonalara aid nümunə

Məhsul və xidmətlər. Bankın təklif etdiyi bir sıra məhsul və xidmətlər yüksək PL/TM riskinə malik ola bilər. Belə məhsul və xidmətlərə bəzi nümunələr aşağıdakılardır:

- ✓ birbaşa əlaqə qurmadan texnoloji vasitələrdən istifadə etməklə həyata keçirilmiş əməliyyatlar;
- ✓ elektron ödəniş xidmətləri: elektron pullar (pul kisələri), rəqəmsal əvvəlcədən ödənişli kartlar (virtual ön ödəmə kartları), vəsaitlərin köçürülməsi, üçüncü tərəfin təqdim etdiyi ödəniş sistemləri, pul köçürməsi üzrə əməliyyatlar, bank terminalları;
- ✓ elektron bankçılıq;
- ✓ "private bank" xidmətləri;
- ✓ trast və aktivlərin idarə edilməsi üzrə xidmətlər;
- ✓ pul alətləri, rəsmi bank çekləri, pul köçürmələri və s.;
- ✓ xarici müxbir hesablar, tranzit hesablar;
- ✓ beynəlxalq ticarətin maliyyələşdirilməsi və akkreditivlər;
- ✓ kreditor fəaliyyəti, xüsusilə də pul və ya bazar qiymətli kağızları ilə təmin olunmuş kreditlər;
- ✓ qeyri-depozit hesablar, qeyri-depozit investisiya məhsulları, sığorta və bank seyf qutularının təqdim edilməsi üzrə xidmətlər;
- ✓ tənzimləyici, hökumət orqanlarının və ya digər etibar doğuran mənbələr tərəfindən müəyyən edilən xidmətlər (potensial yüksəl PL/TM riski daşıyan) və s.

Müştərilər və təşkilatlar. İstənilən hesab növü PL/TM üçün potensial olaraq zəifliyə malikdir, lakin bir sıra müştəri və təşkilatlar yüksək PL riski daşıya bilər. Yüksək risk doğuran bir sıra hesab və fəaliyyət nümunələrinə aşağıdakılar daxildir:

- ✓ banklar, pul xidmətlərinin xarici tədarükçüləri, birjalar, pul köçürməsi həyata keçirən şirkətlər, valyuta mübadiləsi məntəqələri daxil olmaqla xarici maliyyə təsisatları;
- ✓ qeyri-bank maliyyə təsisatları, pul xidmətləri göstərən şirkətlər, kazino, qiymətli kağızların brokerləri/dilerləri və qiymətli metalların, zərgərlik məmulatlarının, daşların dilerləri;
- ✓ xarici siyasi nüfuzlu şəxslər və onların yaxın qohumları və dostları, eləcə də siyasi xadimlər;
- ✓ xarici vətəndaşların/qeyri-rezidentlərin hesabları;
- ✓ pul vəsaitlərinin, qiymətli kağızların və ya digər əmlakın idarə olunması həvalə olunmuş hüquqi şəxslər;
- ✓ nominal saxlayıcı olan və ya sənədli adsız səhmlər buraxmış hüquqi şəxslər;
- ✓ siyahıları Maliyyə Monitorinqi Xidməti tərəfindən təsdiq olunmuş şəxslər;
- ✓ siyahısı Maliyyə Monitorinqi Xidməti tərəfindən təsdiq olunmuş dövlətlərin (ərazilərin) vətəndaşları, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslər, eləcə də göstərilən dövlətlərdə (ərazilərdə) qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslər;
- ✓ əməliyyat hesablarına malik xarici korporasiyalar, xüsusilə də özəl investisiya şirkətləri və yüksək riskə malik coğrafi zonalarda yerləşmiş beynəlxalq kommersiya şirkətləri kimi ofşor korporasiyalar;
- ✓ depozit brokerləri, xüsusilə də xarici depozit brokerləri;
- ✓ gecə mağazaları, restoranlar və pərakəndə mağazalar kimi nağd puldan intensiv istifadə edən biznes sahələri;
- ✓ qeyri-hökumət və xeyriyyə təşkilatları;

- ✓ peşəkar xidmət təchizatçıları, vəkillər, mühasiblər və ya daşınmaz əmlak brokerləri;
- ✓ silah dilerləri və s.

Coğrafi zonalar. Yüksək risk səviyyəsinə malik coğrafi zonalara bəzi nümunələr aşağıdakılardır:

- ✓ BMT-nin qəbul etdiyi beynəlxalq sanksiyalara məruz qalan ölkələr, o cümlədən terrorçuluğu himayə edən dövlətlər;
- ✓ Siyahısı qanunvericiliklə müəyyən edilmiş qaydada müəyyənləşdirilmiş və dərc olunmuş, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan dövlətlərlə (ərazilərlə) əlaqədar olan əməliyyatlar;
- ✓ PL ilə bağlı yüksək səviyyədə naraharlıq yaradan yurisdiksiyalar;
- ✓ Ofşor maliyyə mərkəzləri;
- ✓ Monitorinq subyektini təşkil edən qurumun (məsələn, bank) əvvəlki təcrübəsinə əsaslanaraq yüksək risk dərəcəsi vermiş ölkələr;
- ✓ Etibarlı mənbələrin (nüfuzlu beynəlxalq təşkilatların) məlumatına əsasən terrorçuluğun maliyyələşdirilməsini təmin edən və ya onu dəstəkləyən ölkələr;
- ✓ Etibarlı mənbələrin (nüfuzlu beynəlxalq təşkilatların) məlumatına əsasən böyük korrupsiya və ya digər cinayət səviyyəsi ilə xarakterizə edilən ölkələr;
- ✓ Ölkənin yüksək risk səviyyəsinə malik daxili zonaları (narkotik ticarəti və ya tranziti, maliyyə cinayətləri və cinayət fəaliyyətinin digər sferaları).

Əlavə 2. Banklarda şübhəli əməliyyatların monitorinqi və məlumatların təqdim olunması prosesinin avtomatlaşdırılmasının faydaları

Avtomatlaşdırılmış sistemə malik banklar müxtəlif analitik elementlər üzrə ŞƏM-in yoxlanılması üçün proqram təmitanından istifadə edə bilərlər.

Məlumatların intellektual təhlilini (“data minning”) həyata keçirən proqram təminatı ŞƏM-də sadalanmış fiziki və hüquqi şəxslərin adlarını bankın məlumat bazasında olan şübhəli şəxslərin adları ilə müqayisə edə və qarşılıqlı əlaqənin yoxlanılması üçün müxtəlif mənbələrdən məlumatlar əldə edə bilər (məsələn, eyni ünvan və ya telefon nömrəsinin istifadəsi). Məlumatların intellektual təhlilini (“data minning”) həyata keçirən proqram təminatı həmçinin şübhəli şəxs tərəfindən həyata keçirilmiş (ŞƏM-də olan) əməliyyatları analoji xarakteristikalar üzrə digər ŞƏM-lərdəki digər şübhəli şəxslərin əməliyyatları ilə müqayisə edə bilər (məsələn, eyni hesabdan, analoji vəsait axınlarından istifadə və ya eyni bir benefisiar ilə əlaqənin müəyyən edilməsi). Proqram təminatı həmçinin ŞƏM-də sadalanmış şəxslər və əməliyyatlar əsasında şübhəli fəaliyyətlər qrupunu (klasterini) aşkar etməyə yardım edə bilər. Burada klaster - ŞƏM-də müəyyən edilmiş və sonrakı təhlillər nəticəsində ümumi atributlardan (maliyyə fəaliyyəti, ünvan, telefon, hesab, işgüzar fəaliyyəti, zaman şkalası üzrə hadisələrin təkrarlanan ardıcıllığı və s.) çıxarılması yolu ilə əlaqəli olan fiziki və hüquqi şəxslər qrupu kimi müəyyən olunur.

Şübhəli əməliyyatların aşkar edilməsi və təqdim olunması prosesinin avtomatlaşdırılması ilk növbədə monitorinq subyektinin resurslarına (əmək və vaxt) qənaət etməyə, məlumatların vaxtında, düzgün və keyfiyyətli təqdim edilməsinə imkan verir.

Potensial şübhəli halların aşkar edilməsi üçün bankların hesabatlarının manual araşdırılması böyük səbir və saysız-hesabsız saatlar tələb edir. ŞƏM-lərin manual qaydada doldurulması və göndərilməsinin özü də daha çox vaxt aparır. Avtomatlaşıdırlmış bir sistemə keçərək müvafiq prosesləri optimallaşdırmaq (asanlaşdırmaq) vaxta qənaət etməyə imkan verməkl insan səhvindən şübhəli halların nəzərdən qaçırılması riskini aşağı salır.

Avtomatlaşıdırlmış həllər aşağıdakı bir sıra üstünlüklərə (faydalara) malikdir:

- **Əməliyyatlar barədə hesabatların sistematik icmallarının təmin olunması:** Əməliyyatlar barədə hesabatların yüzlərlə səhifəsini əl ilə nəzərdən keçirməklə şübhəli halın aşkar edilməsi əvəzinə, avtomatlaşdırılmış sistem bu işi sizin əvəzinizə görəcəkdir. Müvafiq sistem xəbərdarlıqların (alert) yaradılması üçün müştərinin fəaliyyətini təhlil edir, potensial şübhəli hallar barədə sizə məlumat verir, nəyin xəbərdarlığa daxil edilməsi və risk səviyyəsinə görə xəbərdarlıqların ranqlaşdırılması (prioritetləşdirilməsi) barədə dəqiq və aydın izah verir.
- **Xüsusi (tənzimlənən) xəbərdarlıq yaratma:** qeyri-adi halları təhlil edən, davranışa əsaslanan sistemin köməyi ilə qəbul etdiyiniz hər hansı xəbərdarlıqların (siqnalların) həqiqətən şübhəli olma ehtimalı var. Bu halda “false positives” (şübhəli kimi görünən, lakin həqiqətdə belə olmayan) məqamların araşdırılmasına daha az vaxt sərf edirsiniz.
- **Məlumatların avtomatik daxil edilməsi:** əgər siz sistem tərəfindən qeydə alınmış hər hansı əməliyyatı araşdırır və fəaliyyətin şübhəli olduğuna dair qərar verirsinizsə və MMO-ya ŞƏM təqdim etmək zərurəti varsa, bu halda sizin sistem iş (case) faylından zəruri informasiyanı götürərək onu birbaşa olaraq ŞƏM hesabatına daxil edir. Bu sizə diqqətinizi hesabatın məzmun hissəsində cəmləşdirmək üçün daha çox vaxt qazandırmış olur.
- **Effektiv iş axınları:** sizin nə etməli və bunu nə vaxt etməli olduğunuzu dərhal görməyiniz üçün avtomatlaşdırılmış sistem şübhəli fəaliyyət üzrə işin (case) statusunu dəqiq göstərir və işləri tarixlər üzrə prioritetləşdirir.
- **İşlərin (“case”) mərkəzləşmiş idarə olunması:** xəbərdarlıqların araşdırılması ilə bağlı bütün materialların mərkəzləşmiş qaydada saxlanılması sizin müxtəlif mənbələrdən informasiya əldə etməyə ehtiyac olmayacaqdır. İşlərin statusu və məlumatlar həmişə əlinizin altında olacaq və bu imkanı yoxlayıcılara da təqdim edə biləcəksiniz. Yoxlayıcı sizin araşdırdığınız potensial şübhəli fəaliyyət nümunəsi göstərməyi xahiş etdikdə, siz sadəcə özünüzün xəbərdarlıq bazasına çıxışı təqdim edə bilərsiniz, onlar isə müvafiq əsasları və qeydləri bir yerdə görə bilərlər.
- **Asan “e-sənədləşdirmə” və məlumat ötürmə (“e-filing”)**: maliyyə institutu ilə MMO arasındakı təhlükəsiz (etibarlı) əlaqə kanalının olması, hesabatları proqram təminatından birbaşa göndərməyə imkan verir.

Banklar tərəfindən şübhəli əməliyyatların aşkar edilməsi və məlumatların ötürülməsi prosesinin avtomatlaşdırılması üzrə sistem seçilərkən aşağıdakılara diqqət verilməsi tövsiyə olunur:

- **Tövsiyə 1: Aşkar etməni proqrama həvalə edin:** sizin əvəzinizdən əməliyyatları yoxlayan və risk dərəcəsi müəyyən etməklə şübhəlilik (əsaslar ilə birlikdə) barədə xəbərdarlıq vermək imkanına malik proqram təminatını seçin.
- **Tövsiyə 2: İş axını ilə hərəkət edin:** istifadəsi sadə olan iş axını və hesabatların tarixlər üzrə prioritetləşdirilməsini təmin edən proqram təminatını seçin. Bu iş axının təşkilinə, iş siyahısının prioritetləşdirilməsinə və məlumatların vaxtında ötürülməsinə imkan verəcəkdir.
- **Tövsiyə 3: Çevik sistem axtarın:** bəzən sizə mövcud hesabatlara əməliyyatlar, subyektlər və ya digər detallar əlavə etmək lazım ola bilər. Bu baxımdan, istənilən zəruri

dəyişikliyə imkan verən kifayət qədər çevik avtomatlaşdırılmış sistem tapdığınıza əmin olun.

- **Tövsiyə 4: Hesabatların tamamlanması prosesini avtomatlaşdırın:** sisteminiz hesabatları dərhal hazırlamağa imkan verən müştəri məlumatlarının sadə axtarışına imkan verməlidir. Müvafiq işdən (case) və xəbərdarlıqlardan olan məlumatlardan istifadə etməklə sizin ŞƏM hesabatını (təsvir hissəsi istisna olmaqla) əvvəlcədən doldura bilən proqram təminatını seçin. Bu sizi əsas məlumatları təkrar daxil etmək zərurətindən azad edəcəkdir. Qənaət olunmuş vaxtı isə hesabatın məzmun hissəsinin keyfiyyətli tərtib olunmasına sərf edin.
- **Tövsiyə 5: Əlaqədə olun:** proqram təminatınız sizin qurumu MMO ilə təhlükəsiz əlaqələnməni (VPN ilə) təmin etməlidir. VPN əlaqə hesabatları birbaşa və dərhal MMO-ya ötürməyə imkan verir ki, bu da sizi məlumatların gec ötürülməsi və elektron qeydiyyat sistemi üzrə sənədlərin doldurulması problemlərini aradan qaldırmağa imkan verir.
- **Tövsiyə 6: Məlumatların saxlanılması imkanlarını nəzərdən keçirin:** milli qanunvericilik sənədlərin MMO-ya təqdim olunduğu andan müəyyən olunmuş minimum müddət ərzində saxlanılmasını tələb edir. Bu məlumatları sizin üçün saxlayan bir sistem seçin. Avtomatlaşdırılmış sistem sizin bütün ŞƏM hesabatlarını qeyd olunmuş minimum müddət ərzində saxlanılmasını təmin etməlidir. Bu halda yoxlayıcılar və ya HMO tərəfindən edilmiş müraciətləri asanlıqla təmin edə bilərsiniz.
- **Tövsiyə 7: Müştəri-yönümlü yanaşmadan istifadə edin:** müxtəlif xarici mənbələrdən məlumat əldə etmək və ya əməliyyatları ayrı-ayrılıqda nəzərdən keçirmək zərurəti olmadan müştərinin hər bir addımını (fəaliyyətini) izləməyə imkan verən bir sistem tapın. Müştərinin ümumi fəaliyyətinin nəzərdən keçirilməsi, onun nə ilə məşğul olması barədə daha yaxşı təsəvvür verməklə şübhəli davranışlarının aşkar edilməsini asanlaşdırır.
- **Tövsiyə 8: Sərf etdiyiniz maliyyə resursu üzrə daha çox əldə edin:** əsas sistemin inteqrasiyası və proqramın tətbiqi çərçivəsində son istifadəçilərə təlimlərin keçirilməsi kimi əlavə xidmətlər təqdim edən proqram təminatı təchizatçısını axtarın. Düzgün təlim və sənədləşmə sizin xüsusi həldən maksimum effektiv şəkildə istifadə etmənizə yardım edəcəkdir.
- **Tövsiyə 9: Texnologiyadan zövq alın (lakin əvvəlcə onu yoxlayın):** sizin texnologiya təchizatçısına çoxlu suallar verməyiniz müvafiq həllin nə təklif etdiyini, məsələn, eyni bir müştəri üçün təkrarlanan xəbərdarlıqlar ilə nə etmək lazım olduğunu başa düşməyə imkan verəcəkdir. Lakin siz həmçinin həmin həldən istifadənin asan olduğuna əmin olmalısınız. Bu məqsədlə, məhsulun pulsuz sınaq versiyasından istifadə olunması sizə riskləri idarə etməyə və əsaslandırılmış qərarların qəbuluna imkan verəcəkdir.
- **Tövsiyə 10: Sadəliyə fikir verin:** əməkdaşların sistemdən necə istifadə olunmasını başa düşmədikləri halda, sistemin yenilənməsi (təkmilləşdirilməsi) mənasızdır. Məsələ səmərəliliyi və effektivliyi artırmaqdır, işçilər yeni sistemin öyrənilməsinə çox vaxt sərf edirlərsə, bunu etmək asan deyil. İstifadəsi asan bir sistemin quraşdırılması azalır işçi stresi və təhsil xərcləri və hər kəsi daha xoşbəxt edir. İstifadəsi sadə olan sistemin quraşdırılması əməkdaşların stressini və təlim xərclərini azalda və hamını məmnun edə bilər.

Bankların PL/TMM komplayens proqramlarının dəstəklənməsində PL/TMM texnologiyalarından istifadə istiqamətləri

Ümumilikdə banklarda PL/TMM texnologiyaları aşağıdakı istiqamətlərin dəstəklənməsi üçün istifadə oluna bilər:

1. *Müştəri qəbulu və ona xidmət*
   - Müştəri məlumatlarının verifikasiyası (məsələn, müştərinin eyniləşdirilməsi proqramı);
   - PL/TMM tələblərinə cavab vermək üçün müştəri barədə məlumatların toplanması və saxlanılması;
   - Müştəri ilə dövri görüşlərin və ya Öz Müştərini Tanı (KYC) düzəlişlərinin (yenilənmələrin) edilməsi;
   - Müştərinin risk reytinqinin hesablanması.

2. *Müştəri və əməliyyatın yoxlanılması ("screening")*
   - Qadağan olunmuş tərəflərin (sanksiya siyahıları) siyahısının axtarılması/yoxlanılması;
   - Nəzarət, HMO və digər sorğuların (sorğular, məhkəmə qərarları və s.) cavablandırılması;
   - Yüksək riskli müştərilərin axtarışı (PEP-lər və s.);
   - Neqativ media axtarışlarının aparılması.

3. *ŞƏM-in monitorinqi, ŞƏM hesabatlarının hazırlanması və ötürülməsi*
   - Müştərinin hesablarında müşahidə olunan potensial şübhəli əməliyyatların monitorinqi və ŞƏM hesabatlarının ötürülməsinin asanlaşdırılması;
   - Müxbir hesablaşma hesabları vasitəsilə müştəri olmayan şəxslərin əmliyyatlarının/ödənişlərinin monitorinqi;
   - Mövcud müştəri bazası üzrə əməliyyatların daha dərindən başa düşülməsini təmin edən məlumatların vizualizasiyası, hesabat təqdim etmə alətlərindən istifadə etməklə şübhəli halların aşkar edilməsi modellərinin yoxlanılması və tənzimlənməsi.

4. *Açılmış işlərin ("case") idarə edilməsi*
   - ŞƏM hesabatlarının araşdırılması vasitəsilə aşkar edilən xəbərdarlıqlar üzrə iş axınının idarə edilməsi;
   - Araşdırmaların və ŞƏM hesabatlarının hazırlanmasının asanlaşdırılması üçün oxşar işlərin müəyyən edilməsi və icmallaşdırılması.

5. *Digər hesabatların monitorinqi, hazırlanması və ötürülməsi*
   - İri məbləğli cari əməliyyat barədə hesabatların (CTR) monitorinqi və ötürülməsi;
   - Yüksək riskli hesabatlarının monitorinqi və ötürülməsi.

6. *Təlim*
   - İşçilərə müntəzəm aidiyyəti təlimlərin keçirilməsi;
   - Təlimlərin və onların nəticələrinin uçotunun aparılması.

Əlavə 3. Analitik təhlil metodlarına nümunə

Analitik prosesin ən mürəkkəb hissəsi – informasiyanın başa düşülməsini asanlaşdırmaq məqsədilə məlumat bazasının ŞƏM və digər informasiyasının təşkili, müqayisəsi və emalıdır. ŞƏM və digər məlumatların təhlili üçün zəruri olan metod və alətlər ŞƏM və digər məlumatlarda olan məlumatların həcmi və növü də daxil olmaqla, bir sıra amillərdən asılı olacaqdır.
ŞƏM-in təhlili bəzən sadə link təhlilinə gətirilir, çünki ŞƏM-də və mümkün məlumatlarda olan təsviri məlumat hadisələr axınının xronoloji təhlili, mal axınlarının təhlili və s. daha mürəkkəb təhlillər üçün kifayət etmir. Belə mürəkkəb təhlillərin aparılması halında bankın analitiki MMO-nun analitikləri ilə sıx əlaqədə işləməlidir.

Əlaqələrin təhlili ("Link analysis")

Əlaqə diaqramlarının qurulması ümumi mənzərəni başa düşmək üçün böyük həcmli məlumatları vizuallaşdırmağa imkan verir. Bu, ŞƏM və digər məlumatlardan müəyyən edilmiş şübhəli şəxslər və hadisələr arasındakı əlaqələrin hazırlanması, təhlili və başa düşülməsində analitikə kömək edir.

Əlaqə təhlilləri müxtəlif tipli geniş məlumat dəsti arasında əlaqələri aşkar etmək üçün istifadə olunan metoddur. Əlaqə təhlilləri hazır mümkün məlumat çoxluqlarını (növlərini), o cümlədən pulların yuylması fəaliyyətinin indikatorlarını təmin edən məlumatları (məsələn, ŞƏM-lər, nəzarət orqanlarının məlumatları, konkret hallar üzrə fayllar və s.) tələb edir. Maliyyə məlumatları halında əlaqələr özündə adları, ünvanları, telefon nömrələrini, bank hesablarını, biznesləri, vəsait axınını və pul depozitlərini birləşdirə bilər. Çoxsaylı məlumat bazalarından belə məlumat hissələrinin birləşdirilməsi və əlaqələndirilməsi məlumatların ifadə etdiyi xüsusiyyətlərin anlaşılması səviyyəsini əlavə edir.

Əlaqə təhlilləri bir və ya daha çox məlumat yazılışı dəstinin inteqrasiyasından asılıdır. Hər bir məlumat dəsti üzrə hər bir yazılış informasiyaya malik bir sıra məlumat sahələrindən ibarətdir. Bu, fərd (ad, ünvan və telefon nömrəsi sahələri), bank hesabı (hesab nömrəsi, sahibi, bank) və ya biznes (adı, sahibkarın adı, üzvlər, ünvan) üzrə yazılışlar ola bilər. Əlaqə təhlilləri bu yazılışların hər birində müqayisə oluna bilən (uyğun) sahələri axtarır. Məsələn, bir-biri ilə eyni telefon nömrəsi ilə assosiasiya olunan iki ayrı fərdi müəyyən edən iki ayrı məlumat (hesabat) göstərə bilər ki, bu iki şəxs bir-birini yaxşı tanıyır və ya hətta ola bilsin ki, eyni ünvanda yaşayırlar.

Əlaqə təhlilləri informasiyanın müqayisə oluna bilinməyən bir çox mənbələrini inteqrasiya edə bilir. Əlaqə təhlilləri belə müxtəlif yazılışların birləşdirilməsi yolunu təmin etdiyindən, analitiklər müxtəlif məlumat dəstləri arasındakı xüsusiyyətləri və münasibətləri aşkar edə bilərlər.

Əlaqə təhlilləri üzrə nəticələrin ətraflı və qrafiki təsvirini təkmilləşdirmək üçün vizuallaşdırıcı proqram təminatı alətlərindən istifadə olunur. Vizuallaşdırma alətləri əlaqələri əks etdirən vizual mexanizmləri təmin etməklə, məlumatlardan ortaya çıxan əlaqələri şərh etməkdə, müəyyən etməkdə və onları təhlil etməkdə analitiklərə yardım edir. Belə proqram təminatı məhsulları qrafik təsvirlər vasitəsilə korrelyasiya və əlaqələri vizuallaşdırmaqda istifadəçilərə yardım edir ki, bu da analitiklərin nəzərdən keçirməli və təhlil etməli olduqları mətnin böyük həcminin azaldılmasına imkan verir. Əlaqə təhlilləri aləti əməliyyatları bir-biri ilə müqayisə edir və əməliyyatları bir-biri ilə əlaqələndirir.

Klaster təhlilləri

Klaster təhlilləri adi halda məlumatlarda aşkar edilə bilinməyən qrupları müəyyən etməkdə istifadə olunan digər analitik metoddur.
Klaster təhlili – obyektlərin parametrlərinin qiymətlərinə uyğun olaraq onların siniflərə bölünməsidir. Bir sinifə düşən obyektlər müxtəlif siniflərə düşən obyektlərə nisbətən öz parametrlərinə görə daha böyük oxşarlığa malikdir. Obyektlərin bölünməli olduğu siniflərin sayını vermək olar. Həmçinin obyektlərin baxılan göstəricilərinə müxtəlif çəkilər vermək olar.
Klaster təhlilini (klasterləşdirməni) həyata keçirən kompüter proqramları mövcuddur. Klasterləşdirmənin ənənəvi kompüter təsnifatı metodlarından əsas fərqi təlim seçiminin və ümumiyyətlə təsnifləşdirilən məlumatların struktur və statistik xüsusiyyətləri haqqında hər hansı bir apriori məlumatların olmamasındadır. Klaster təhlili üçün neyron şəbəkələr tətbiq edilə bilər.

Klaster təhlilində birinci addım əsas klasterlərin yaradılmasıdır. Məsələn, şəxs ünvanı və telefon nömrəsini siyahıya daxil edə bilər. Sonra ayrı şəxs fərqli ünvana, lakin əvvəlki şəxslə eyni telefon nömrəsinə malik ola bilər. Klasterləşdirmə prosesi bu iki şəxsi ümumi olan telefon nömrəsi üzrə əlaqələndirir. Adlar, telefon nömrələri və ünvanlardan başqa, analitik sürücülük vəsiqələri, eyniləşdirmə nömrələri, bank hesabları və hər hansı digər mümkün məlumatlarla bu prosesi təkrarlaya bilər. Belə klasterləşdirmə növü analitikə məlumatlar arasından qeyd olunan əlaqlərin miqyasını müəyyən etməyə imkan verir.

Klasterləşdirmənin daha təkmil forması analitikin araşdırdığı ziddiyyət (məntiqsizlik) barəsində yaratmasıdır. Məsələn, ABŞ-da Sosial Sığorta nömrələri üzrə fərdlər arasında qarşılıqlı olaraq identik münasibətlər mövcuddur. Eyni bir Sosial Sığorta nömrəsi ilə eyniləşdirilmiş birdən çox şəxs ola bilməz və subay şəxs heç vaxt müxtəlif sosial sığorta nömrələrindən istifadə etmir. Analitik, məsələn, klasteri “beşdən böyük olan” bütün insan və Sosial Sığorta nömrələri klasterlərini tapa bilər. “Beşdən böyük” insanların və Sosial Sığorta nömrələrinin hər hansı kombinasiyası deməkdir (4 Sosial Sığorta nömrəsi ilə bağlı olan bir şəxs, 3 Sosial Sığorta nömrəsi ilə bağlı olan iki şəxs və s.). Məlumatların hipotezaları dəstəklədiyi halda belə klasterləşdirmə növü hipotezaları müəyyən etmək üçün onları testdən keçirməyə imkan verir.

Bir sıra müxtəlif şəxslərin hesab açmadan eyni benefisiara köçürmələrinə diqqətli olması üçün analitiklər klaster təhlillərini apara bilərlər.

ŞƏM-lərin effektiv müəyyən edilməsi və təhlili məqsədilə bank əməkdaşlarına digər təhlil metodları (Activity flow, Association matrix, Crime pattern analysis, Criminal business profiles, Risk analysis, Demographic/social trends analysis, Event flow analysis, Financial analysis, Hypothesis testing, Market profiles, Network analysis, Target profile analysis və s.) barədə də təlimlərin keçirilməsi zəruridir.

Əlavə 4. Bank tərəfindən MMO-ya təqdim ediləcək ŞƏM hesabatının nümunəvi forması

İşin №si:	
İşin açılma tarixi:	
İşin MMO-ya ötürülməsi barədə qərarın tarixi:	

_____ əlaqəli şübhəli əməliyyatlar barədə

"TƏHLİL HESABATI"

1. Əsas fiqurantlar barədə məlumatlar

1.1. Fiziki şəxslər:

№	**Fiziki şəxsin tam adı** (Adı, Ata adı və Soyadı)	**Əsas məlumatlar**	
1		Təvəllüd tarixi:	
		Şəxsiyyətini təsdiq edən sənədin FİN-i, seriyası və nömrəsi:	
		Vətəndaşlığı:	
		VOEN-i (fərdi sahihkardırsa):	
		Peşəsi (fəaliyyəti):	
		Təhlildə adı keçən şəxslərlə qohumluq əlaqəsinə dair:	
		Rəhbəri, təsisçisi, nümayəndəsi, hesabına imza hüququ olan hüquqi şəxsin adı (1-2 əsas hüquqi şəxslər sadalanmaqla):	

1.2. Hüquqi şəxslər

№	**Hüquqi şəxsin tam adı**	**VÖEN / qeydiyyat №si**	**Qeydiyyat / təsis tarixi**	**Təsisçi / səhmdar / rəhbər / qanuni təmsilçi / partnyor** (qeyd edilməklə)	**Əlavə məlumat**
1				*Təsisçi və səhmdarın tam adı və payı (% ilə); Rəhbərin və qanuni təmsilçinin tam adı və təvəllüdü*	Fəaliyyət sahəsi: Unvanı:

2. İşin məzmunu (xülasə)

2.1. Bu hissədə kim?, nə?, nə vaxt?, harada?, necə?, nə üçün? suallarını əhatə edən qısa məzmun əks olunur. Həmçinin işin açılması üçün əsas olmuş şübhəli əməliyyatın və ya məlumatın nömrəsi və mənbəyi göstərilir.

3. Şübhəli halları əsaslandıran əsas faktlar

Bu bölmədə hazırda əsas fakt təşkil edən və eləcə də şübhəli halları doğurma ehtimalı yüksək səviyyədə olan faktlar əks olunur. Məhz bu faktlardan şübhə üçün əsaslar (indikatorlar – 5-ci bölmə) müəyyən olunacaqdır və ya əksinə desək, indikatorlar məhz bu faktlara əsaslanmalıdır.

3.1. Bu hissədə şübhəli halın ortaya çıxdığı ayrı-ayrı faktlar (əməliyyat, cinayət işi, ziddiyyətli məlumatlar və s.) və onların qısa şərhi (zərurət olarsa, ümumiləşdirilmiş cədvəl əlavə edilə bilər) verilir.

4. Şübhəli halları əsaslandıran digər əlaqəli faktlar

Bu bölmədə hazırda əsas fakt olmayan (və ya ola bilməyən), lakin şübhəli halları doğurma ehtimalı orta səviyyədə olan faktlar (yəni hazırda zəif indikator kimi çıxış edən) əks olunur. Müvafiq məlumatlar zərurət olduğu halda (yəni HMO üçün növbəti araşdırmalar üçün ipucu olaraq) verilməlidir.

4.1. Bu hissədə şübhəli halın ortaya çıxdığı ayrı-ayrı faktlar (əməliyyat, cinayət işi, ziddiyyətli məlumatlar və s.) və onların qısa şərhi (zərurət olarsa, ümumiləşdirilmiş cədvəl əlavə edilə bilər) verilir.

5. Müşahidə edilən (və ya ehtimal olunan) şübhəlilik əsasları:

Təhlil nəticəsində məlumatlarda müşahidə edilən şübhəlilik meyarları (indikatorlar) əks olunur. Bu meyarlar 3-cü bölmənin nəticələrinə uyğun olmalıdır. Bu bölmə üzrə meyarları tam təsdiq edilmiş aşkar meyarlara və ehtimal olunan meyarlara ayırmaq olar.

5.1. meyar 1:
5.2. meyar 2:
5.3. meyar 3:

6. Əməliyyatların həyata keçirilmə sxemi:

Bu bölmədə təhlil edilmiş əlaqəli subyektlər tərəfindən həyata keçirilmiş əməliyyatların ümumi sxemi verilir (sxem zərurət olduqda, yəni mürəkkəb prosesi daha aydın izləmək məqsədilə verilməlidir, sadə əməliyyatlarda müvafiq sxemə ehtiyac olmaya bilər, yaxud belə sxem sözlə aydın təsvir oluna bilər).

7. Qoşmalar:

Bu bölmədə təhlil hesabatında qeyd edilmiş əsas faktları və şübhəlilik hallarını təsdiqləyən, eləcə də hüquq mühafizə orqanı üçün faydalı ola biləcək məlumatlar əks olunur və MMX tərəfindən hüquq mühafizə orqanına təqdim edilən məlumata qoşma olaraq əlavə edilir. Qoşmalara əlavə olunan maliyyə əməliyyatları, eləcə də digər açıq mənbə məlumatları mümkün qədər sadələşdirilməli, xülasə olunmalı və aydın formaya salınmalıdır. Əlavə mümkün əhəmiyyətli məlumatların həcmi böyük olduqda və xülasə oluna bilinmədikdə, linkə, yaxud sənədə (mənbəyi göstərilməklə) istinad verilə bilər.